www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15-16 iyun 2017-ci il Cümə axşamı № 128 (6742) Qiymәti 60 qəpik

**Xəbər**

**Ucarda "Son zəng" faciəsi - şagirdlər ağır avtoqəza törətdilər**

yazısı səh.2-də

**Gündəm**

**Prezident Cocuqmərcanlıda mühüm bəyanatlar verdi**



İlham Əliyev işğaldan azad edilən kəndə baş çəkdi; dövlət başçısı xəbərdarlıq etdi

yazısı səh.3-də

**Erməni generalın hədəsinə azərbaycanlı polkovnikdən sərt cavab**

yazısı səh.7-də

**"Qafqaz" Konserv Zavodunda bir gün - istehsal prosesi jurnalistlərin gözündə**

yazısı səh.10-da

**Turizmdə nağd ödənişlər dövrü qapandı...**

yazısı səh.6-da

**Tarixçi alim erməni yalanlarını ifşa etdi - şok faktlar**

yazısı səh.11-də

**AXCP-dən istefalar - Əli Kərimlinin gəncləri Rəsul Quliyevin partiyasına qoşuldular**

yazısı səh.4-də

**Terrorçulara dəstək verən ölkələr hansılardır...**

yazısı səh.13-də

**Neftin qiyməti Amerikadan asılı qalıb...**

yazısı səh.6-da

**Anasını öldürən 16 yaşında qatil məhkəmə qarşısında**

yazısı səh.14-də

**Ramazan ayının 20-ci günü**

İftar 20.29. İmsak 03.08-dək (QMİ)

20-ci günün duası: "İlahi, bu gün mənim üçün behişt qapılarını aç və cəhənnəm qapılarını bağla! Belə bir gündə məni Quran oxumağa müvəffəq et! Ey möminlərin qəlblərini sakitləşdirib Aram Edən!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

Bu gün 2-ci Qədr gecəsidir.

# Tamara Qriqoryeva Bakıya qarşı...

## QƏRB AZƏRBAYCANLA BAĞLI HANSI PLANI HAZIRLAYIR-ŞOK TƏFƏRRÜATLAR

"Narıncı inqilablar" mövzusu arxa planı keçsə də, indi dünyada başqa bir eksperiment "uğurla" həyata keçirilməkdədir: "seçkilərə kənardan müdaxilə"; təəssüf ki, bəzi hallarda milli hisslərdən uzaq, Azərbaycana içində nifrət daşıyanlar ölkəmiz əleyhinə kampaniyanın ən fəal üzvlərinə çevrilirlər...




yazısı səh.5-də

## Ermənilərin Naxçıvandan "ikinci cəbhə" xofu - düşmənin qorxulu röyası

"Kiçik torpaq"da Türkiyə-Azərbaycan ortaq təlimləri Ermənistanda təlaşı daha da artırıb - əsas səbəb; azərbaycanlı politoloq: "Naxçıvan sizə indi 1992-ci ilin Kəlbəcəri deyil, oradan İrəvana elə bir zərbə endirilə bilər ki..."

yazısı səh.8-də



*Mirmahmud Mirəlioğlu:*

**"Əsl seyidlərin çoxunun şəcərəsini yandırıblar, özünü məhv ediblər"**

yazısı səh.4-də



*Elçin Mirzəbəyli:*

**"Dünya Rusiya kimi nəhəng nüvə dövlətinin parçalanmasına hazır deyil"**

yazısı səh.7-də



*Qabil Hüseynli:*

**"Bölgədə gedən proseslər Azərbaycanın xeyrinə cərəyan edir"**

yazısı səh.9-da

**15 iyun 2017**



## "Rabitə işi"ndə mübahisə düşdü- hakim qəzəbləndi

**Bakı Ağır Cinayətlər Məhkəməsində Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) 11 keçmiş əməkdaşının cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.**

Musavat.com xəbər verir ki, Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə hakim bildirib ki, məhkəməyə Rabitə Nazirliyindən arayışlar daxil olub.

Arayışda bildirilir ki, Anar Mustafayevin qohumları tərəfindən iyunun 7-də dəymiş 567 min manatlıq ziyan tam ödənilib.

Digər arayışda isə bildirib ki, Beytulla Hüseynovun nazirliyə vurduğu 10 milyon 200 min ziyan mayın 30-da qohumları tərəfindən ödənilib.

Arayışlarda qeyd edilir ki, nazirliyin zərəri ödəyən şəxslərlə bağlı heç bir mülki iddiası qalmayıb.

Daha sonra hakim təqsirləndirilən şəxslərin vəkillərinə müdafiə çıxışı üçün söz verib.

Təqsirləndirilən şəxslərdən Beytulla Hüseynov, Vidadi Zeynalov, Anar Mustafayev, Namazalı Məmmədov və Qəmbər Bəybalayevin vəkilləri çıxışa hazır olmadıqlarını deyiblər.

Vəkillərin mövqeyi hakim Əfqan Hacıyevi qəzəbləndirib. Hakim vəkillərə sonuncu dəfə 2 gün vaxt verib.

Lakin vəkillər də buna etiraz ediblər. Bildiriblər ki, sabah iş günü olmadığından müvəkkilləri ilə görüşə bilməyəcəklər.

Hakim onların tələbini təmin etməyib və prosesi iyunun 16-sı saat 15:00-dək təxirə salıb.

Qeyd edək ki, ittihama görə, nazirliyin sabiq aparat rəhbəri Vidadi Zeynalov da daxil olmaqla, məhkəmə qarşısına çıxarılan 11 nəfər ümumilikdə 153 milyon 143 min manatlıq mənimsəmə və israf etmədə təqsirli bilinirlər. Cinayət işinin materiallarında yazılıb ki, nazirliyin tabeliyində olan strukturların təmir-tikintisinə, avadanlıqların alınmasına sərf olunmuş məbləğlər şişirdilib, tenderlər formal keçirilib, layihələrin icrası rəhbərliyə yaxın şirkətlərə həvalə olunub.

❑ **İ.MURADOV**

## Hava qeyri-sabit keçəcək, dolu düşəcək



**Sabah ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraiti dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək.**

Səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-qərb küləyi gündüz arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturunun gecə 16-18° isti, gündüz 25-30° isti, Bakıda gecə 16-18° isti, gündüz 27-29° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunundan 753 mm civə sütununa enəcək. Nisbi rütubət 75-85 % təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 14-19° isti, gündüz 26-31° isti, dağlarda gecə 9-14° isti, gündüz 15-20° isti olacağı gözlənilir.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Ucarda "Son zəng" faciəsi

### Məktəbi bitirən şagirdlər ağır avtoqəza törətdilər

**Ucar rayonunda orta məktəb məzunları yol qəzasına düşüb, xəsarət alanlar var.**

"Report"un Şirvan bürosunun xəbərinə görə, hadisə iyunun 14-də 15:30 radələrində şəhərin mərkəzində qeydə alınıb.

Göyçay rayon sakini, 1995-ci il təvəllüdlü Namiq Alik oğlu Məmmədov kirayə götürdüyü "VAZ-2107" markalı avtomobillə qonşu Ucar rayonunda hərəkətdə olan zaman idarəetməni itirib və yolun kənarında olan "Mercedes" markalı avtomobilə çırpılıb.



Nəticədə sürücü və avtomobildə olan sərnişinlər - Göyçay şəhər 7 saylı orta məktəbin XI sinif şagirdləri, 2000-ci il təvəllüdlü Fərhad Siyavuş oğlu Əhmədov və 1999-cu il təvəllüdlü İlham Ceyhun oğlu Əhmədov xəsarət alıblar.

Yaralılar Ucar Rayon Mərkəzi Xəstəxanasına yerləşdiriliblər.

Faktla bağlı Ucar Rayon Polis Şöbəsində araşdırma aparılır.

## ABŞ-dan Türkiyəyə qarşı addım: PKK-ya pay verilir

PKK

**-PYD terror qruplaşmasına Suriya neftindən pay veriləcək.**

Axar.az "Yeni Şəfəq"qəzetinə istinadən xəbər verir ki, Suriyanın Qamışlı şəhərində ABŞ ilə Səudiyyə Ərəbistanın kəşfiyyat nümayəndələrinin iştirak etdiyi görüşdə Suriya neftindən PYD-PKK terror qruplaşmasına pay verilməsi qərarlaşdırılıb.

Yığıncaqda ABŞ, Səudiyyə Ərəbistanı, Misir, BƏƏ nümayəndələri və Türkiyədə fəaliyyətinə son qoyulan "Təyyar əl-Qad Suriya" Hərəkatı üzvlərindən İsmayıl Bubi də iştirak edib.

ABŞ nümayəndələri təşkilata neftdən pay verilməsinin İran və Rusiyanın Suriya neftinə dair planlarını pozacağını bildirib.

## Belarus Rusiya rublundan imtina edir

**Belarus Milli Bankı (BMB, Mərkəzi Bank) iyul ayının 1-dən etibarən Rusiya rublunu özünün qızıl-valyuta ehtiyatlarının tərkibində nəzərə almayacaq.**

"Report"un "Reuters" agentliyinə istinadən verdiyi xəbərə görə, BMB hesablaşmalarda tam olaraq beynəlxalq standartlara keçməyi planlaşdırır.

Xatırladaq ki, bank 2004-cü ildən ehtiyatlarının həcmini açıqlamağa başlayıb. Bu zaman 2 fərqli metoddan istifadə edilib. Bunlardan biri Beynəlxalq Valyuta Fondunun (IMF), digəri isə milli standartlar əsasında hazırlanıb. Vahid hesablaşma göstəricisinə keçmək qərarına isə Mərkəzi Bank IMF və Dünya Bankı ilə apardığı məsləhətləşmələrdən sonra gəlib.

## Bir neçə dövlət müəssisəsi ləğv olundu

**Əmlak Məsələləri Dövlət Komitəsinin İstehsal və Xidmət Müəssisələrinin İdarəetmə Mərkəzinin tabeliyindəki "Azelektromaş" Elmi-İstehsalat Birliyinin Elmi-Tədqiqat Elektrotexnika İnstitutu ləğv olunduğunu elan edib. "APA-Economics" xəbər verir ki, bu barədə "Vergilər" qəzetinin xüsusi buraxılışında yer alan elanda deyilir.**

Kreditorlar iki ay ərzində tələblərini Bakı şəhəri, Nərimanov rayonu, Z. Xəlil küçəsi 11A ünvanına bildirə bilərlər.

Bundan başqa, Azərbaycan prezidentinin "Standartlaşdırma, Metrologiya, akkreditasiya və patent hüquqi obyektlərinin mühafizəsi sahələrində idarəetmə təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 10.02.2017-ci il tarixli fərmanına əsasən ləğv edilmiş Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutunun tabeliyində olan "AzStandartinform" MMC-nin ləğvi barədə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 24 may 2017-ci il tarixində sərəncam qəbul olunub.

Bununla əlaqədar Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi sədrinin 8 iyun 2017-ci il tarixli əmri ilə Ləğvetmə Komissiyası yaradılıb.

"AzStandartinform" tərəfindən kreditor və debitor borcları yaranan müəssisə və təşkilatlar elanını dərc olunduğu gündən 60 gün ərzində Ləğvetmə Komissiyasına müraciət edə bilərlər.

Eyni zamanda adıçəkilən fərmana əsasən Standartlaşdırma və Sertifikatlaşdırma İnstitutunun tabeliyində fəaliyyət göstərən "Az-Sert" MMC ləğv olunub. Bununla əlaqədar Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsisədrinin 8 iyun 2017-ci il tarixli əmri ilə Ləğvetmə Komissiyası yaradılıb. "AzSert" tərəfindən kreditor və debitor borcları yaranan müəssisə və təşkilatlar bu elanını dərc olunduğu gündən 60 gün müddətində Ləğvetmə Komissiyasına müraciət edə bilərlər.

Əlavə olaraq Əmlak Məsələləri Dövlət Komitəsinin "Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi Təcrübə-Sınaq Mərkəzinin (AZTEST) ləğv edilməsi barədə 04.05.2017-ci il tarixli sərəncamına və komitə sədrinin 07.06.2017-ci il tarixli əmrinə əsasən AZTEST ləğv edildiyini elan edib. AZTEST tərəfindən debitor və kreditor borcları yaranan müəssisə və təşkilatlar iyunun 9-dan 15 gün müddətində Ləğvetmə Komissiyana müraciət edə bilərlər.

## Fikrət Fərəməzoğluna 7 il həbs cəzası verildi

**İyunun 14-də Bakı Ağır Cinayətlər Məhkəməsində "Jam.az" saytının rəhbəri Fikrət İbişbəylinin (Fərəməzoğlu) cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**



Hakim Eldar Mikayılovun sədrliyi ilə keçirilən prosesdə F. Fərəməzoğlu son söz deyib. O, günahsız olduğunu deyərək, barəsində bəraət hökmünün çıxarılmasını istəyib. Məhkəmə Kollegiyası müşavirəyə gedib. Müşavirədən sonra hökm oxunub. Hökmə əsasən, F. Fərəməzoğlu 2 il jurnalist fəaliyyəti ilə məşğul olmamaq şərti ilə 7 il müddətinə azadlıqdan məhrum edilib.

Fərəməzoğlu 30 iyun 2016-cı ildə Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həbs edilib. Polisin məlumatına görə, o, 3000 manat rüşvət alarkən saxlanılıb.

Jurnalist ittihamı təkzib edib və qanunsuz qumarxanalar haqqında yazılarına görə təqib edildiyini bildirib. Yerli hüquq müdafiəçiləri onu siyasi məhbus kimi tanıyır.



Denis Danilidis

## "Yeni saziş üzrə Bakıda aparılan danışıqlar uğurlu olub" - Aİ-nin Azərbaycan nümayəndəliyi

**"İyunun 13 və 14-də Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında yeni saziş üzrə keçirilən danışıqlar uğurlu olub".**

APA-nın məlumatına görə, bu sözləri Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin Siyasət şöbəsinin rəhbəri Denis Danilidis deyib. O bildirib ki, hər iki tərəf tez bir zamanda saziş üzrə razılaşmanın əldə olunmasına sadiqdir: "Bugünkü danışıqlarda bəzi məsələlər artıq razılaşdırılıb. Bir sıra məsələlərin isə razılaşdırılmasına ehtiyac var. Növbəti görüşün nə zaman keçiriləcəyi hələ məlum deyil. Lakin Azərbaycan tərəfi istəyir ki, avqust ayında, yay tətili başlamazdan əvvəl Brüsseldə növbəti iclas baş tutsun".

## Əhalinin müəyyən kateqoriyasının icbari tibbi sığorta haqqını dövlət ödəyə bilər

**"Yevlax rayonunda və Mingəçevir şəhərində pilot layihə olaraq, icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar həkimlərin maaşının artırılması istiqamətində addımlar atılıb. Həkimlər üçün bonuslar da müəyyənləşdirilib".**

APA-nın məlumatına görə, bunu dünən "Caspian European Club"un təşkil etdiyi biznes-forumda Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta Agentliyinin direktoru Zaur Əliyev deyib. Z. Əliyev bildirib ki, fevraldan bu iki bölgədə icbari tibbi sığorta tətbiq olunur və hazırda gündəlik ambulator gəlişlərin sayı 1200-dən 1400-ə qalxıb: "Xəstəxanaların reyestrinin elektronlaşması da vacibdir. Bu proses nə qədər tez başlasa, ölkə üzrə icbari tibbi sığortanı daha da genişləndirə bilərik. Ölkədə mərhələ-mərhələ icbari tibbi sığortanın tətbiqini vacib sayırıq. İcbari tibbi sığorta ilə bağlı gəlirlərə gəlincə, hansı kateqoriya əhali icbari tibbi sığorta ödəməlidir, hansı kateqoriyanın icbari tibbi sığorta haqqını dövlət ödəməlidir, bu məsələ bu il müəyyənləşməlidir. Bununla bağlı sənəd Prezident Administrasiyasına göndərilib. İlin sonunda Milli Məclisdə qanunvericiliyə müvafiq dəyişiklik ediləcəyinə inanırıq".

# President Cocuqmərcanlıda mühüm bəyanatlar verdi

## İlham Əliyev işğaldan azad edilən kəndə baş çəkdi; dövlət başçısı xəbərdarlıq etdi; "Bu, Azərbaycan tarixində dönüş nöqtəsi idi"

**İyunun 14-də prezident İlham Əliyev yenidən qurulan Cocuq Mərcanlı kəndinə baş çəkib, orada görülən işlərlə tanış olub, sakinlərlə görüşüb. İlham Əliyevin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səfəri yeni salınan kənd yolunun açılışı ilə başlayıb. Dövlət başçısına məlumat verilib ki, yolun ümumi uzunluğu 9 kilometr, eni 12 metrdir.**



Sonra prezident İlham Əliyev Cocuq Mərcanlı kəndinin bərpası çərçivəsində görülən işlərlə tanışlıq zamanı kənd sakini Oqtay Həziyevin evində olub. O.Həziyev kənd azad edilməzdən əvvəl orada 23 il tək yaşayan ailənin başçısıdır. Ona dövlət başçısı "Əmək" ordeni verib.

**"Bu gün ölkəmizin həyatında əlamətdar və tarixi gündür". "Report" xəbər verir ki, bunu İlham Əliyev yenidən qurulan Cocuq Mərcanlı kəndində Oqtay Həziyevin ailə üzvləri ilə söhbətində deyib:** "Cocuq Mərcanlı kəndinin bərpası münasibəti ilə siz sakinləri, bütün Azərbaycan xalqını təbrik edirəm. Cocuq Mərcanlı kəndinin bərpası tarixi hadisədir. Siz, bu kənddə yaşayan insanlar kəndin tarixini yaxşı bilirsiniz. İndi isə bütün Azərbaycan Cocuq Mərcanlının tarixini bilir. Bütün dünya Cocuq Mərcanlını tanıyır. Kəndin Azərbaycan tarixində xüsusi yeri var. Siz bilirsiniz ki, Cocuq Mərcanlı bir neçə ay Ermənilərin işğalı altında qalıb, həmin müddətdə kəndi dağıdıblar. Bütün binaları sökmüşdülər, Cocuq Mərcanlı kəndi erməni vəhşiliyinin canlı şahididir. 1993-cü ilin dekabrında ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilən Horadiz hərbi əməliyyatı nəticəsində 20-dən çox kənd, o cümlədən Cocuq Mərcanlı, Horadiz qəsəbəsi işğaldan azad olundu. Cocuq Mərcanlıda yaşamaq riskli və təhlükəli idi. Buna baxmayaraq, siz sakinlər də burda yaşayırsınız. Ötən il aprel döyüşlərində erməni təxribatının qarşısını alanda Azərbaycan Ordusu uğurlu əks-tədbir əməliyyatı keçirdi. Minlərlə hektar Azərbaycan torpağı işğaldan azad edildi. Lələtəpənin azad edilməsi ilə Cocuq Mərcanlıda təhlükəsiz yaşayış təmin olundu...

Bu gün Milli Qurtuluş Günü ərəfəsidir. Qurtuluş Günü Azərbaycan tarixində dönüş nöqtəsi idi. Heydər Əliyevin hakimiyyətə qayıtması nəticəsində ölkədə sabitlik bərqərar olub, inkişafa start verilib. Bugünkü Azərbaycan dünya miqyasında seçilən bir ölkədir. Təəssüf edirəm, hamımız təəssüf edirik ki, müstəqilliyimizin ilk günlərindən Heydər Əliyev Azərbaycanda rəhbərlikdə olmayıb. Əgər rəhbərlikdə olsaydı, bir qarış torpaq da işğal altına düşməzdi. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində ölkəmizə rəhbərlik etmiş insanlar zəiflik, qorxaqlıq göstərdilər. AXC-Müsavat cütlüyünə gəlincə, xəyanətkar hakimiyyət torpaqlarımızı qoruya bilmədi. Qurtuluş Günü bugünkü reallıqları şərtləndirən gündür. Əgər Heydər Əliyev müstəqilliyimizin ilk illərində hakimiyyətdə olsaydı, özümüzü bəlalardan qoruya bilərdik".

**Prezident qeyd edib ki, Azərbaycan güclü iqtisadiyyata malikdir, beynəlxalq arenada öz mövqelərini möhkəmləndirir:** "Bu gün Azərbaycan ordusu dünyada ən güclü ordular sırasındadır. Aprel döyüşləri də bunu göstərdi. Biz, Azərbaycan cəmiyyəti bunu bilirdi. Aprel döyüşləri dünyaya bunu əyani göstərdi. Bu gün Azərbaycan ordusu torpaqlarını düşməndən azad etməyə qadirdir. Gün gələcək, bayrağımız Şuşada da dalğalanacaq".










Prezident həmçinin Cocuq Mərcanlı kəndində Şuşa məscidinin bənzəri olan məsciddə yaradılan şəraitlə tanış olub.

Daha sonra dövlətimizin başçısı yeni inşa olunan 96 şagird yerlik məktəblə tanış olub. Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov və Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov prezident İlham Əliyevə məlumat veriblər ki, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən görülən işlər nəticəsində kənddə küçələrdə işıqlandırma sistemi qurulub, su, qaz, telefon xətləri çəkilib, subartezian quyusu qazılıb, 100 kubmetrlik su anbarı inşa edilib. Yollara və səkilərə asfalt örtüyü salınıb, yaşıllaşdırma işləri aparılıb. Kənddə müasir standartlara cavab verən yeni yarımstansiya inşa edilib. Yeni Komplekt Transformator Məntəqəsi, həmçinin subartezian quyusuna xidmət edəcək transformator quraşdırılıb.

Bununla da Cocuq Mərcanlı qaçqın və məcburi köçkünlər üçün inşa edilmiş sayca 96-cı, məcburi köçkünlərin öz yurdlarına qaytarıldığı ilk yaşayış məskəni kimi tarixə düşüb. Qeyd edək ki, Cocuq Mərcanlı kəndində hazırda 400 ev təsərrüfatı, 1428 sakin qeydiyyatdadır.

**Hərbi məktəblərin kursantlarının bir qrupu ilə görüşdə Azərbaycan prezidenti İlham Əliyev deyib:** "Bu gün tarixi gün, Cocuq Mərcanlı kəndinin bərpası günüdür. Cocuq Mərcanlı Azərbaycan ordusunun uğurlu əks-hücumu nəticəsində azad olunub. Bu gün Azərbaycan ordusunu dünya miqyasında güclü ordulardan biridir. Azərbaycanda ordu quruculuğu Azərbaycan rəhbərliyi üçün bir nömrəli prioritet məsələdir. Son illər bu istiqamətdə böyük uğurlar əldə edilib.

Ordumuzun maddi-texniki təminatı ən yüksək səviyyədədir. Lazım olan ən müasir silah-sursat, texnika alınır. Eyni zamanda ölkəmizdə bir çox hərbi təyinatlı məhsullar istehsal olunur. Ordumuzun döyüş qabiliyyəti artır, nizam-intizam yüksək səviyyədədir. Bunun nəticəsidir ki, keçən ilin aprelində erməni təxribatına Azərbaycan ordusu layiqli cavab verib. Üç rayon ərazisinin bir hissəsi işğalçılardan azad edildi. O torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu uğurlu əməliyyat nəticəsində bu kəndə yeni həyat qayıdır, köçkünlər kəndə dönür. Onlar 20 ildən çoxdur ki, Vətənə, doğma torpaqlarına qayıtmaq arzusu ilə yaşayırlar. Əminəm ki, yüzlərlə gənc Cocuq Mərcanlını görməyib. Ancaq bura qayıtmaq arzusu ilə yaşayıb. Həmin gün gəldi. Bu gün Cocuq Mərcanlı bərpa olunur, Şuşa məscidinin oxşarı tikilib, yeni mərhələdə əlavə 100 ev tikiləcək. Cocuq Mərcanlı kəndinin sakinləri torpaqlarına qayıdacaq. Siz isə gənc zabit kimi torpaqlarımızın keşiyində dayanacaqsınız".

**Sonra prezident İlham Əliyev kəndin ərazisini gəzib.**

**Qeyd edək ki, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün son 23 ildə 6 milyard manatdan çox vəsait sərf olunub. Ümumilikdə indiyədək 95 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınıb. Bunun da 95 faizi son 13 ildə inşa edilib.**

# Əsrin gizli silahı: cizgi filmləri



Kənan RÖVŞƏNOĞLU

## Sərhədləri bağlamaq mümkün olsa da, ekranları qapamaq olmur, yeni "silahlar" isə indi ekranlardan gəlir

**Baltik ölkələri rusların məşhur "Maşa və Ayı" multiserialını qadağan etməyə hazırlaşır. Çünki yerli ekspertlər bu cizgi filmini Rusiyanın "yumşaq gücü" və ya ideoloji təbliğat vasitəsi hesab edirlər. Onlara görə "Maşa və ayı" üzərindən Rusiya hibrid savaşı aparır.**

Analitiklərin fikrincə, filmdəki ayı Rusiyanı təmsil edir. Və filmdəki gizli mesajlar Rusiyanın gücünə, onu təhdid edən düşmənlərinə işarədir. Hər halda, bu, hələlik Baltik ölkələrində ortaya atılan və antirus ovqatından körüklənən bir fikirdir. 2009-cu ildən yayına çıxan və hazırda müxtəlif dillərdə tərcümə edilərək 120 ölkədə yayılan "Maşa və ayı" multiserialı təpədən-dırnağa qədər "rusdur". Hətta yerli ekspertlər serialdakı ayının Rusiyanı təmsil etməsinə, Maşanın isə xarici agent obrazını canlandırdığına və bunun içində sovet hərbi geyimi elementlərinə, öz bağını qoruyan ayının böyük Rusiyanı qoruduğu mesajına diqqət çəkirlər. Rusiya ilə az qala müharibə vəziyyətində olan Baltik ölkələrinin narahatlığını da bu mənada anlamaq lazımdır. Çünki cizgi filmləri artıq uzun illərdir ki, gizli təbliğat vasitəsi, ideoloji silah funksiyası daşıyır.

Əslində bu mövzunu mənim üçün aktuallaşdıran başqa hadisə oldu. Ötənlərdə evdə türkcə hansısa kəlmənin mənasını tapa bilmədim, məndən fərqli olaraq türk dilini cizgi filmlərindən öyrənən 6 yaşlı uşaq bildi. Məlum oldu ki, hələ üzündən oxuya bilməyən oğlum mənim bilmədiyim sözləri bilir. Bütün bunları isə cizgi filmlərindən öyrənib.

Cizgi filmlərinin təbliğat gücü yeni kəşf olunmayıb. Film sənayesi 20-ci əsr imperiyalarının "yumşaq gücü" rolunu uğurla oynayıb. Müasir mədəniyyətin ən tirajlı və ciddi təsiri olan film sənayesi son 100 ilin ən kəsərli ideoloji silahına çevrilib. "Nu poqodi" sovet təbliğat maşını olaraq "soyuq müharibə" illərində sosialist düşərgəsinin ən geniş yayılmış ekran sənəti idi. Burda zorakı, tənbəl, haqqı olmayanı qamarlamaq istəyən Canavara qarşı zəif, ancaq ağıllı, zirək və nizamlı Dovşan mübarizəsində ikinci qalib gəlir.

Bu sahədə ən geniş təcrübə isə heç şübhəsiz Amerika film sənayesinə məxsusdur. ABŞ cizgi filmlərinin böyük çoxluğu içərisində gizli mesajlar daşıyır. "Ninza tısbağalar", "Hörümçək adam", "Ben Ten", "Göydə Tanrı, yerdə Amerika" şüarı ilə ortaya çıxaraq dünyanı qurtaran "Supermen" və bənzər onlarla Amerika cizgi filmi qəhrəmanları gizli şəkildə kapitalizmi, Amerikanın qüdrətini tərənnüm edən mesajlar verirlər. Yeri gəlmişkən, 3 il əvvəl Yaxın Şərqdə böyük əraziləri işğal edən İŞİD də təbliğatının böyük bir qismini harada hazırlandığı bəlli olmayana cizgi filmləri ilə aparırdı.

Mövzudan çox da yayınmamaq üçün yenə də girişdəki məsələyə qayıtmaq istəyirəm. Bu günün ən kəsərli ideoloji silahlarından biri cizgi filmləridir. Çünki ən həssas və zəif nöqtədən "vurur". Hədəf uşaqlardır. İndi məlum olduğu kimi, uşaqlar kiçik yaşlarından artıq televizora baxır və baxdıqları cizgi filmlərindən yalnız dil deyil, eyni zamanda filmdə təqdim edilən həyat tərzini, adətləri, davranış və ən əsası düşüncə tərzini mənimsəyir. Bu səbəbdən də dünyada bütün "iddialı" dövlətlərin hər birinin "öz cizgi filmi" var.

Dünya sürətlə dəyişir, artıq hər kəsin evində televizor, smart telefonlar, planşetlər və bunların hamısının internetə çıxışı var. Uşaqlar isə seçim edə bilmirlər *(böyüklərin belə doğru seçim etməsi çox zaman mümkün olmur)*. Belə bir vəziyyətdə xarici, yad və ziyanlı təbliğatların təsirinə düşmək ehtimalı çox yüksəkdir. Təəssüf ki, bu sektorda da Azərbaycan nəinki rəqabətə dayanacaq gücə sahibdir, hətta yerli tələbatı ödəmək imkanı yoxdur.



# Ortada milyardların söhbəti var...

Samir SARI

**Böyük Britaniyada çıxan "The İndependent" qəzeti ölkəsinin, eləcə də dünyanın ən ciddi nəşrlərindən sayılır. Bu qəzet elə-belə şey yazmaz, eyzən ciddi xəbərlər, sanballı araşdırmalar, tutarlı analizlər verər.**

Bu girişi ona görə yazıram ki, indi bu qəzetdə getmiş bir məqalədən söz açanda oxucuların ağlına bizim ölkədə "Murad Dadaşov xəstələnib", "Müğənni Rəqsanənin maşınını cızıblar", "Səidə Sultan hovuza girdi" kimi daha ciddi xəbərlər verən "hersheydenbir. az" tipli saytların yazıları gəlməsin. İngilis həmkarlarımız Trampla, Meylə, Merkellə, Putinlə əlləşirlər.

Dünən "The İndependent" yazır ki, Qətərin başına gələn bu pəstaha terrora-merrora dəstəklə bağlı deyil, sırf Trampın Qətər rəhbərliyi ilə apardığı intriqaya görədir.

İddianın təfərrüatına keçməzdən öncə bir-iki incə və neçə yoğun nüansa toxunaq.

İŞİD neçə ildir fəaliyyətdədir? Azı 7 ildir.

Bu müddət ərzində İŞİD-i dolandıran, maliyyələşdirən olubmu? Əlbəttə, olub.

Ən çox hansı dövlətin adı çəkilirdi? Səudiyyə Ərəbistanının, BƏƏ-nin, Qətərin.

Bəs dünyanın ən güclü kəşfiyyat strukturuna malik olan ABŞ bunu nədən faş etmirdi? Yəqin faş etmək istəmirdi.

Bəs indi niyə edir? Çünki artıq istəyir.

Elədirsə, nədən İŞİD-i maliyyələşdirən o biri ölkələrin adı keçmir, yalnız Qətərin adı çəkilir? Ona görə ki, belə lazımdır, Qətərin nəsə bir günahı var.

Əcəba, nəymiş bu günah?

"The İndependent" də elə bunu yazır:

"Cənab Tramp və onun qızı İvanka bundan 7 il əvvəl Qətərə gəlibmişlər. Onlar Qətərdə investisiya dəstəyi almaq üçün iki Qətər rəsmisinə yaxınlaşıblar. Onlardan biri Qətər investisiya şurasının üzvü Hüseyn əl-Abdullah, digəri isə hakim ailədən o vaxtlar baş nazir olan Şeyx Həmid bin Qassem ət-Tani olub. Trampın o sövdələşməsi baş tutmayıb".

Qəzet yazır ki, cənab əl-Abdullah cənab Trampın təqdimat tərzindən şoka düşüb. Yəni belə anlaşılır ki, indinin özündə də yonulmamış, patavalı adam təsiri bağışlayan, həmsöhbətləriylə ərkyana-ərkyana danışan Tramp şeyxlə söhbətində də özünü yaxşı aparmayıb və Həmid bin Qassem ət-Tani fikirləşib ki, bu haranın ayısıdır, bunula iş görmək olmaz. Beləcə, Qətərin 338 milyard dollarlıq dövlət fondundan Trampın layihəsinə pul verilməyib.

İş bununla bitməyib, Tramp gedib, bir neçə ildən sonra onun kürəkəni Cared Kuşner Qətərə gəlib. Keçən ilə qədər Qətərlə Kuşner ailəsi arasında sövdələşmə, söhbət davam edib, amma axırda şeyx Həmid Caredin atasına deyib ki, bizdə sizə veriləcək pul yoxdur, gedin, 1,2 milyard dolları başqa yerdən tapın.

İndi işə baxın, Tramp iki həftə əvvəl Qətərin qonşuluğuna, Səudiyyə Ərəbistanına gəldi, 100 milyard dollarlıq alış-veriş saziş-maziş bağladı, ABŞ-a qayıdan kimi din, dil, millət qardaşları Qətərin başına oyun açdılar. Və heç kəs sifarişçinin kim olduğuna dair dərin düşüncələrə dalmadı. Hər şey gözönündəydi.

Görünür, elə ona görə Qətər əmiri Trampın dəvətini qəbul etmədi, Ağ Evə gedib onunla görüşmədi. Bəlkə də Tramp Qətər əmirini Ağ Evdə qəbul edərkən deyəcəkdi ki, 1 milyardı qoy masanın üstünə, get başını aşağı sal işlə, Səudiyyə kralına deyərəm, Qətərə xətər yetirməsin.

İndi bəziləri deyəcək, bu, inandırıcı deyil, münaqişənin daha dərin səbəbləri olmalıdır. Guya ki, bu deyilənlər bəsit səbəblərdir.

Birincisi, ortada milyardların söhbəti gedir və milyardlar olan yerdə hər zaman münaqişə və müharibə var.

İkincisi, bu söhbəti edənlər çox da dərin adamlar, bəşəri və ülvi dəyərlərə önəm verən tiplər deyillər, alverçi şeylərdir.

Üçüncüsü... Söhbəti çox uzatmayaq, biz demokratiyadan, insan haqlarından danışa-danışa neft alveri edənləri, konsorsium quran lotuları, ibnələri çox görmüşük.

Bu baxımdan, "The İndependent"in yazdığına şübhə etmək olmaz. Tramp "terror dəstək verənləri" axtarırsa, ən yekəsi ilə dost-qardaş olmazdı. Üstəlik, Suriyaya atdığı "Tomohavk" ikicəciyini də Rəqqaya, İŞİD-in başına atardı, məsələ bitərdi.

Demək, dava yenə də yorğan davasdır.

# "Əsl seyidlərin çoxunun şəcərəsini yandırıblar, özünü məhv ediblər"

## Azərbaycanın ən tanınmış seyid siyasətçisi danışdı

**Son bir həftədə ölkə mediasının və sosial şəbəkələrin ən çox mübahisə və müzakirə doğuran mövzularından biri cənub bölgəsində yaşayan bir din xadiminin insanlara "Seyid vəsiqəsi" paylaması barədə yayılan xəbər oldu. Sosial şəbəkədə yayılan vəsiqənin bir tərəfindən bir gənc adamın şəkli, üst tərəfdə isə "Seyid Ağa" yazısı və vəsiqənin nömrəsi yazılıb. Yeri gəlmişkən, yazıdan görünür ki, artıq 20 mindən çox belə vəsiqə verilib. Vəsiqənin digər səhifəsində isə başda "Həqiqətən bu şəxs seyiddir" yazılıb, altdan isə vəsiqəni verən şəxsin ad-soyadı, eləcə də şəxsi möhürü vurulub. Vəsiqəni verən adam Qafqaz Müsəlmanları İdarəsinin Cənub Regional qazısı Hacı Mirqiyas Təhməzovdur.**



Mirmahmud Mirəlioğlu

Vəsiqənin şəkli sosial şəbəkələrdə yayılandan sonra müzakirələr başlandı və məsələ o dərəcədə böyüdü ki, Qafqaz Müsəlmanları İdarəsi sədrinin deputat qardaşı Cavanşir Paşazadə belə bir vəsiqənin verilməsinin düzgün olmadığını bəyan etdi. Ardınca isə vəsiqəni verən Hacı Mirqiyas Təhməzov səhv etdiyini bildirdi.

Seyid adının partiya və ya dövlət vəsiqəsi şəklində bəlli şəxslərə verilməsi və bunu hansısa bölgə qazısının etməsinin heç bir dini və ya hüquqi əsası yoxdur. Ərəbcədə cənab, ağa mənasını verən "seyyid" (yerli yazılışı seyid) islamiyyətin gəlişindən sonra həm də Məhəmməd Peyğəmbərin nəslindən olanlara verilib. Bəzi mənbələrə görə, nəvəsi İmam Hüseynin (ə) soyundan gələnlərə deyilib.

**Azərbaycanın ən tanınmış seyid siyasətçisi KXCP sədri Mirmahmud Mirəlioğludur. Onun nəsil şəcərəsi Azərbaycanda, əsasən də cənub bölgəsində hörmət edilən seyid nəslidir. Mirmahmud Mirəlioğlunun "seyid vəsiqəsi" olayına münasibətini öyrənməyə çalışdıq. Mirmahmud Mirəlioğlu dedi ki, kiminsə "seyid vəsiqəsi" verdiyi barədə ətraflı məlumata malik deyil:** "Sizdən bir az qabaq bir nəfər mənə belə bir olayın baş verdiyi barədə danışdı. Mən də sadəcə olaraq, güldüm. Seyidlərin kim olduğunu nəzəri cəhətdən hər kəs bilir. Amma elə adamlar var ki, şəcərələrinə əlavələr edirlər. Yeni şəcərə var və təsdiq olunub ki, kim kimdir. Lakin bir də görürsən kimlərsə ora əlavələr edir. Halbuki buna ehtiyac yoxdur. Şəcərən bəllidir və xüsusi olaraq dədənin adını ora əlavə etməyə ehtiyac yoxdur".

Tarixdə belə hallar çox olub, qurama sənədlər verilib, seyidlərin bir müddət demək olar ki, nəsli kəsilib və əsl seyidlərin çoxunun şəcərəsini yandırıblar, özünü məhv ediblər. Bəyliklə bağlı da Çar Rusiyası zamanında belə hallar olub. Əsl bəyləri öldürüb qondarma bəylərə vəsiqə, rütbə veriblər və sair. Yəni belə şeylər tarixdə də olub".

Onu da qeyd edək ki, bir zamanlar seyidliyin verdiyi imtiyazdan saxtakarlıqla faydalanmasın deyə seyidliyin müvafiq "şəcərəsi" tutulub. Şəcərə ərəbcədə ağac mənasını verir və seyidliyə iddia edən şəxsin soy kökünün kimlər vasitəsilə imamlara bağlandığını göstərirdi. Bu şəcərəyə müvafiq yerli dövlət qurumlarının təsdiqi də şərt olub. Hətta İran və İraqda bununla bağlı müvafiq arxivlərin olması haqqında iddialar var.

Ancaq indi Mirqiyas Təhməzovun verdiyi vəsiqədə o şəcərədən söhbət getmir.

❑ **E.SEYİDAĞA**

# AXCP-dən istefalar

## Əli Kərimlinin gəncləri onu niyə Rəsul Quliyevə dəyişirlər?

**Son günlər Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Əli Kərimli qanadından gənclərin istefalarının şahidi olmaqdayıq. Son iki gündə partiya sıralarını iki gənc tərk edib, partiyaya üzv olmaq üçün müraciət edən daha iki gənc isə ərizlərini geri götürüb.**

Onlardan üçü siyasi fəaliyyətlərini Amerikada mühacirətdə yaşayan sabiq spiker Rəsul Quliyevin lideri olduğu, Ağasif Şakiroğlunun sədrlik etdiyi Gələcək Azərbaycan Partiyasında (GAP) davam etdirəcəklərini bəyan edib. Digər gəncin də yaxın günlərdə GAP-a qoşulacağı gözlənilir.

İstefa verən hər bir gənc öz facebook səhifəsində paylaşdıqları statuslarında AXCP-ni tərk etmələrinin səbəblərini göstəriblər.

**İlk istefa verən AXCP-nin Nərimanov şöbəsindən Aslan Həmidli olub. O statusunda bunları yazıb:** "Bu gündən etibarən AXCP-dən çıxıram. Partiya ilə əlaqəmi sonlandırıram. Həqiqətən çox yaxşı insanlar tanıdım partiyada və bir çoxu ilə əlaqəni davam etdirəcəm. Əli bəy çox yaxşı insandır və mübariz insandır. Orda mübarizə aparan insanlara mübarizələrində uğurlar arzulayıram. Zatən hədəfimiz eynidir. Mübarizəmi Gələcək Azərbaycan Partiyasında davam etdirəcəm".

A.Həmidlinin istefasından sonra ona yaxın olan və AXCP-yə üzv olmaq üçün müraciət edən Məhəbbət Məmmədzadə və Arzuman Nəbiyev müraciətlərini geri götürərək, GAP-a üzvlük üçün müraciət ediblər və partiya sıralarına qəbul olunublar.

**Partiyanın Binəqədi şöbəsinin üzvü Adəm İbrahim isə istefasını bu cür dəyərləndirib:** "Dəyərli dostlar, əziz cəbhəçilər, bu gün üzv olduğum AXCP sıralarından




istefa verirəm. Bu gün Əli bəyəb habelə onun ətrafında olan insanlara böyük hörmət bəsləyirəm. Sadəcə, bəzi məsələlərə görə hörmət etdiyim, həmçinin dəyər verdiyim AXCP-nin sıralarını tərk etmək məcburiyyətində qalıram. Orada olan şəxslərə mübarizələrində hər zaman uğurlar arzulayıram. Mənim bu mübarizəm hər zaman davam edəcək və vətənimə, milliyətimə olan haqq mübarizəsinə daim sadiq qalacam".

İstefa statuslarının altındakı şərhlərdən aydın olur ki, gənclər AXCP-ni tərk etmələrinə səbəb kimi ən çox partiyada Elçibəyçi gənclərin sıxışdırılmasını göstəriblər.

GAP-ın sədri A.Şakiroğlu "Yeni Müsavat"a açıqlamasında son zamanlar gənclərin rəhbərlik etdiyi quruma üzv üçün müraciətlərinin sayının çoxaldığını qeyd edərək, digər partiyalardan da bu tipli istefaların davamlı olacağını qeyd edib.

❑ **Cavanşir ABBASLI**

# İsa Qəmbər 2018-də prezidentliyə namizəd olacaqmı?

## Razim Əmiraslanlı: "Seçkiöncəsi siyasi şəraitdən asılı olaraq, Müsavat ən düzgün bildiyi qərarı verəcək"



**Gələn il ölkəmizdə keçiriləcək prezident seçkiləri ilə bağlı artıq müzakirələr başlayıb. Heç şübhəsiz ki, müzakirələrin əsasını seçkilərdə prezidentliyə kimlərin iddiaçı olacağı ilə bağlı fikirlər təşkil edir. İndiyəqədərki prezident seçkilərində namizəd olan siyasətçilər daha çox önə çəkilir.**

Həmin şəxslərdən hələ ki açıq şəkildə iddiasını sürəcəyini bəyan edən yoxdur. Amma bununla belə, bir müxalifət lideri var ki, onun 2018-ci ildə prezidentliyə namizəd olacağı ehtimalları kifayət qədər yüksəkdir. Bu, Müsavat Partiyasının sabiq başqanı, Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbərdir. 2003-cü il seçkilərində iştirak edən və müxalifətin əsas namizədi olan İsa Qəmbərin 2018-də də namizəd olma ehtimalı böyükdür.

İsa Qəmbər başqanlıqdan getsə də, Müsavatın son qurultayının qərarı ilə onun adı partiyanın qarşıdan gələn seçkilərdə namizədi kimi hələ 2014-cü ildə təsdiq olunub. Bununla bağlı qurultayın rəsmi qərarı da var. Amma bununla belə, MSDM rəhbərinin seçkilərdə iştirak etməyəcəyi ehtimalları da var. Buna səbəb də Müsavat və digər öndə gedən siyasi qurumların seçkiləri boykot edə biləcəkləri ilə bağlı səslənən iddialardır.

**Müsavatın Divan üzvü, partiyanın təşkilat şöbəsinin sədri Razim Əmiraslanlı səslənən iddialarla bağlı dedi ki, Müsavat Partiyası son qurultayında 2018-ci ildə keçiriləcək prezident seçkilərində İsa Qəmbərin namizədliyini rəsmən təsdiq edib:** "Partiyamız nəinki bu qərardan imtina edə bilər, əksinə, öz namizədini sona qədər müdafiə edəcək. Amma seçkilərə hələ uzun zaman var. İlin sonu və ya gələn ilin əvvəllərində müzakirələr aparıb, ondan sonra hazırlıq işlərinə start verəcəyik. Seçkilərin boykot edilib-edilməyəcəyi ilə bağlı deyilənlərə gəlincə, bununla bağlı danışmaq tezdir. Amma siyasi partiya olaraq, biz həmişə seçkilərdə iştirak etməyin tərəfdarı olmuşuq. Yenə də seçkiöncəsi siyasi şəraitdən asılı olaraq, Müsavat Partiyası müzakirələr aparıb, ən düzgün bildiyi qərarı verəcək".

❑ **Cavanşir ABBASLI**

# Tamara Qriqoryeva Bakıya qarşı...

**Azərbaycanda keçiriləcək prezident seçkilərinə 1 ildən çox zaman qalsa da, bəzi Qərb təsisatlarının indidən fəallaşması barədə ilkin siqnallar daxil olur. Artıq "narıncı inqilablar" mövzusu arxa planı keçsə də, indi dünyada başqa bir eksperiment "uğurla" həyata keçirilməkdədir. Bu, ümumi olaraq "seçkilərə kənardan müdaxilə" adlanır.**




# Qərb Azərbaycanla bağlı hansı planı hazırlayır-şok təfərrüatlar

## "Narıncı inqilablar" mövzusu arxa plana keçsə də, indi dünyada başqa bir eksperiment "uğurla" həyata keçirilməkdədir: "seçkilərə kənardan müdaxilə"; təəssüf ki, bəzi hallarda milli hisslərdən uzaq, Azərbaycana içində nifrət daşıyanlar ölkəmiz əleyhinə kampaniyanın ən fəal üzvlərinə çevrilirlər...

2016-cı ilin noyabrında ABŞ-da keçirilən prezident seçkilərinə Rusiyanın müdaxilə etdiyi iddiası elə bir beynəlxalq qalmaqal yaradıb ki, bu, az qala "narıncı inqilab" kimi dağıdıcı gücə malikdir. Küçələrdə Ukraynadakı "narıncı inqilab" və ya Avromeydanda olduğu kimi, barrikadalar qurulmur, adamlar qarşı-qarşıya gəlib bir-birinin qanını tökmür, amma mahiyyət etibarilə proses hakimiyyətlərin dəyişməsinə hesablanıb.

Bu eksperimentin ilk qurbanı kimi qüdrətli ABŞ-ın qalmaqallı prezidenti Donald Tramp seçilib. "Rusiyanın adamı" kimi damğalanmış Tramp aylardır nəyisə sübut etmək üçün cəhdlər edir, amma faydası yoxdur. Bu prosesin sonunda Tramp kürsüsündən olarsa, əmin olun ki, tezliklə "seçkilərə kənar müdaxilə" modeli dünyanın dörd bir tərəfinə yayılacaq...

***

Nə qədər qəribə səslənsə də, Azərbaycan hakimiyyəti üçün "seçkilərə kənar müdaxilə" mövzusu yeni deyil, əksinə, ölkəmiz demək olar ki, hər seçkilərdə bu "müdaxilələrlə" üzləşir. Məsələn, 2013-cü il prezident seçkilərində Kremlin "Milyarderlər İttifaqı" adlı təşkilatı məhz Azərbaycandakı seçkilərə təsir etmək üçün yaradılmışdı. Amma bu proses adətən Qərb təsisatları üzərindən qurulur ki, hakimiyyət bu hücumları dəf etməkdə artıq kifayət qədər təcrübə toplayıb.

Yada salaq ki, 2009-cu ildən başlayaraq ABŞ-ın Milli Demokratiya İnstitutu və Beynəlxalq Respublikaçılar İnstitutu kimi təşkilatlar məhz bu və ya digər şəkildə "seçkilərə kənardan müdaxilə" ittihamları ilə Azərbaycanda fəaliyyətlərini dayandırıblar. Rəsmi Bakı seçkilərə bu cür müdaxilələri nəinki qəbul etməyib, üstəlik, "beşinci kolon" kimi tanıdığı bütün xaricdən maliyyələşən QHT-ləri son illər tam nəzarəti altına ala bilib.

Hakimiyyət "kənar müdaxilə"ni o həddə qəbul etmir ki, hətta o kampaniyaların arxasında hansı supergüclər dayanarsa, onları ifşa etməkdən də çəkinmir. Məsələn, 2015-ci il Avropa Oyunları və parlament seçkiləri ərəfəsi Azərbaycan əleyhinə xüsusilə Avropada ciddi anti-təbliğat başlamışdı. Azərbaycan hakimiyyəti tezliklə bu kampaniyanın arxasında dayanan təşkilatları deşifrə etdi və külli miqdarda pul ayrılmış anti-Azərbaycan qüvvələrin ABŞ-ın o zamankı dövlət katibi Con Kerrinin Konqresdəki ofisindən idarə olunduğunu açıqlamaqdan çəkinmədi.

Rəsmi Bakını indi Tramp administrasiyasından daha çox məmnun edən "kənar müdaxilə" siyasətindən imtina etməsidir ki, bu, ən yüksək səviyyədə bəyənilir.

***

Amma Avropa təsisatları ilə bağlı məsələ o qədər də sadə deyil. Doğrudur, indi Avropa Birliyi ilə əlaqələrdə yeni bir mərhələ başlayıb ki, bu da hakimiyyəti tam qane edir. Ağ Ev rəsmilərinin "kənar dövlətlərin işinə qarışmırıq" deməsindən sonra ehtimal etmək olar ki, yaxınlaşmaqda olan seçkilərdə "kənar müdaxilələr" insan haqları qurumları üzərindən qurulacaq ki, yazının girişində dediyimiz fəallıq da bu səbəbdən diqqət çəkir.

İnsan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar üçün "kənar müdaxilə" aydındır ki, bütün hakimiyyətlərin ən həssas nöqtəsi olan insan haqları və siyasi məhbus problemi üzərindən qurulur. Azərbaycanda demokratiya və insan haqları sahəsində problemlər var, bunu heç kim birmənalı inkar da etmir. Fəqət bu cür "insan haqları" deyə bağıran təşkilatların bu kimi problemləri Azərbaycan dövləti əleyhinə siyasətə, seçkilərdə təzyiq alətinə çevirmələri qəbuledilməzdir.

Bir çox hallarda bu təşkilatların hesabatları hələ rəsmən açıqlanmazdan əvvəl ermənilərin əlinə düşməsi, Azərbaycan əleyhinə beynəlxalq erməni lobbisinin anti-təbliğatına çevrilməsi haqlı suallar yaradır. Qərbin insan haqları qurumlarının bəzilərinin ya mərkəzi, ya regional ofislərində ermənilərlə yanaşı, təəssüf ki, azərbaycanlılar da "çalışır", külli miqdarda qrant layihələri "qardaş malı" kimi bölünür. Daha acınacaqlısı, bu tip dəyərsiz adamlar düşmən ölkə mediasında "ulduza" çevrilir, Azərbaycan haqda həqiqətdən uzaq reportajları yayılır. Təsadüfi deyil ki, Azərbaycanda bəzi insan haqları müdafiəçiləri siyasi məhbus probleminin ölkəmiz əleyhinə çirkin kampaniyaya çevrildiyinin fərqində olduğu üçün bəzi təşkilatlarla əlaqələri kəsiblər. Onlar siyasi məhbus siyahısı hazırlasalar da, onu beynəlxalq qurumlara deyil, Əfv Komissiyasına göndərirlər.

***

Əcnəbinin pulunun milləti yoxdur. Amma təəssüf ki, bəzi hallarda milli hisslərdən uzaq, Azərbaycana içində nifrət daşıyanlar bu kampaniyanın ən fəal üzvlərinə çevrilirlər. Mitinqlərdə heç vaxt barmağı belə qanamamış adamların Avropada rahat sığınacaq almalarının bir səbəbi də bu kimi Azərbaycana nifrət edənlər ordusu hazırlamağa hesablanıb.

Bu sırada mərkəzi qərargahı Vaşinqtonda yerləşən "Freedom House"nin daha fəal olması barədə məlumatlar var. Məsələn, bilgili mənbənin "Yeni Müsavat"a verdiyi məlumata görə, Avropada siyasi sığınacaq almaq istəyən şəxslər üçün Şengen vizaları "Freedom House"un Litva nümayəndəliyinin (əməkdaş Lyudmila Vackova) və bu dövlətin XİN-in (əməkdaş Danatas Butkus) dəstəyi ilə həmin ölkənin Gürcüstandakı səfirliyində alınır. "Freedom House" həmçinin Litva bankları vasitəsilə maliyyə vəsaitlərinin leqallaşdırılmasında da xüsusi rol oynayır.

"Freedom House" Gürcüstanla yanaşı, Polşada və Litvada da Azərbaycandan olan "siyasi qaçqınlar" üçün treninqlər təşkil edir. "Azərbaycan dəhşətlərini gözü ilə görmüş" adamların həmin ölkələrin ərazisində Qərb diplomatları ilə görüşünə şərait yaradılır. İddialara görə, bu cür görüşlərdə əsasən "göz yaşları" Azərbaycan üçün deyil, maliyyə yardımları ayrılması üçün axıdılır. Bu kimi görüşlərdən sonra isə "aktivistlərdən" Azərbaycana qarşı sanksiyaların tətbiqi üçün fəallıq, Avropa İnsan Haqları Məhkəməsinə müraciətlərin sayının artırılması tələb olunur. Azərbaycanla bağlı məsələlərə hansı səviyyədə maraq göstərilməsinin göstəricisi kimi keçmiş dövlət katibi Con Kerrinin insan haqları üzrə müavini Tomas Malinovski və onun köməkçisi Robert Berschinskinin bu görüşlərdə iştirakını göstərmək olar.

İddia olunur ki, xüsusilə Pribaltika və Qərbi Avropa ölkələrinin ərazilərində təşkil olunmuş bu kimi görüşlərdə ABŞ səfirliklərinin xüsusi fəallığı da nəzərə çarpır ki, bu da Ağ Ev administrasiyasında hələ də Trampın komandasının mövqelərinin möhkəmlənməməsi kimi izah edilir.

***

Siyasi məhbus problemindən Azərbaycana qarşı istifadə edilməsi üçün ölkədəki bəzi QHT-lərdən yararlanılması barədə xəbərlər var. Bildirilir ki, bu tip adamlar qonşu ölkələrə çağırılaraq treninqlərə cəlb edilir. Onlara Azərbaycandakı səfirliklərin əməkdaşları ilə sıx əlaqədə fəaliyyət göstərmək və işlərini qarşılıqlı koordinasiya etmək tapşırılır ki, əcnəbi diplomatlar da siyasi səhnədə cərəyan edən proseslər barədə məlumatlar toplayaraq öz ölkələrinin xarici siyasət idarələrinə ötürə bilsinlər.

***

**Redaksiyamıza göndərilən e-maillərin birində isə bu məsələdə daha fəal olan bir adamın adı çəkilir: Tamara Qriqoryeva. T.Qriqoryeva 2004-2008-ci illərdə BDU-nun jurnalistika fakültəsində bakalavr, 2013-2015-ci illərdə ABŞ-ın Vaşinqton şəhərində yerləşən Amerika Universitetində rabitə və media araşdırmaları üzrə magistr təhsili alıb. T.Qriqoryeva 2008-ci ildə "France Press" agentliyinin Bakı müxbiri də işləyib. Hazırda "Freedom House"un "Emergency Asistance Programs" layihəsində Avrasiya üzrə mütəxəssis vəzifəsində işləyir. Onun həqiqətən də anti-Azərbaycan kampaniyasında hansısa rol aldığını iddia etmirik, çünki mənbə bizə yalnız öz bildiyi həqiqəti göndərib.**

**Lakin buradakı məlumatlar diqqətdən kənarda qalmamalıdır və böyük maraq doğurur. Orada hansı iddialar var?**

**Oxuyun:** "Qriqoryeva Tamara Eyvazovna "siyasi məhbus"lara dəstək verilməsi, insan hüquq və azadlıqların bərqərar olması adı altında Azərbaycanda fəaliyyət göstərən gənclər sektorunun təmsilçilərini qonşu ölkələrə çıxararaq treninqlərə cəlb edir.

"Freedom House"da aparılmış vəzifə bölgüsünə əsasən, Tamara Qriqoryevanın məsuliyyət dairəsinə Tacikistan Respublikası da daxildir. O, həmin dövlətlərdə "rəngli inqilablar"ın baş verməsi üçün münbit şəraitin yaradılmasına çalışır.

Tamara xanımın dosyesindən bəzi ştrixlər onun gerçəkdən də necə mühüm mütəxəssis olduğunu göstərir. Məsələn, o, 2009-2014-cü illərdə "General Dynamics" informasiya texnologiyaları şirkətində araşdırmaçı qismində işləyib, Mərkəzi Asiya, Rusiya, Pakistan, Əfqanıstan və İran haqqında məqalələr hazırlayıb. 2013-2014-cü illərdə Vaşinqtonda təhsil aldığı müddətdə Avrasiya Fondu tərəfindən yaradılan "Gənc Mütəxəssislər Şəbəkəsi" proqramında təcrübə keçib. 2014-2015-ci illərdə ABŞ-da hökumət nümayəndələrinə informasiya texnologiyaları sahəsində xidmət göstərən və "Amerikanın səsi" radiosunun Ermənistan bürosuna yardımlar edən "Applied Memetics LLC" şirkətində media əməliyyatları üzrə direktor vəzifəsində çalışıb. Hazırda "Freedom House" təşkilatının "Emergency Asistance Programs" layihəsində Avrasiya üzrə mütəxəssis vəzifəsində işləyir. Bununla yanaşı, məlumatda iddia olunur ki, Tamara Qriqoryeva onlayn fəaliyyət göstərən Ermənistanın «a1plus.am» media şəbəkəsi üçün Azərbaycan barədə qeyri-obyektiv məqalələr hazırlayır. Azərbaycan, rus, ingilis və özbək dillərində danışır".

İddia olunur ki, Tamara Qriqoryeva Qərb dövlətlərinin Azərbaycandakı səfirliklərinin əməkdaşları ilə sıx əlaqədə fəaliyyət göstərir və işlərini qarşılıqlı koordinasiya edirlər. Əcnəbi diplomatlar Azərbaycanda siyasi səhnədə cərəyan edən proseslər barədə məlumatlar toplayaraq öz ölkələrinin xarici siyasət idarələrinə ötürürlər.

Göstərilən layihələrdə bir sıra tanınmış simalar, o cümlədən də hazırda Gürcüstanda siyasi qaçaq olan bəzi soydaşlarımız da iştirak edirlər. Onların əsas işi maliyyə vəsaitlərini Gürcüstanda qəbul edərək Azərbaycana ötürməkdir. Hansı ki, bu proseslə bağlı yaxın zamanlarda Azərbaycan hüquq-mühafizə orqanları iki səs-küylü əməliyyat keçiriblər.

***

Bilinən ən böyük həqiqət budur ki, Azərbaycan təkcə hakimiyyətdən və müxalifətdən ibarət deyil. Bu ölkənin pisi də, yaxşısı da, uğuru da, uğursuzluğu da bütövlükdə Azərbaycanın adına yazılır. Azərbaycanın problemlərini xaricə göndərilən donoslarla, qərəzli hesabatlarla həll etmək mümkün deyil... Azərbaycan iqtidarı isə "xaricdən təzyiqlərə", yuxarıda da qeyd etdiyimiz kimi, həmişə hazırlıqlı və qətiyyətlidir...

❑ **"YM"**

# Turizmdə nağd ödənişlər dövrü qapandı...

## Turizm agentliklərini nə gözləyir?

**Azərbaycan hökuməti nağdsız ödənişlərin əhatə dairəsini genişləndirmək üçün bir sıra addımlar atır. Belə addımlardan biri də təhsil haqlarının və turizm agentliklərinə ödəmələrin nağdsız qaydada həyata keçirilməsi barədədir. Artıq "Turizm haqqında" Qanuna müvafiq düzəliş Milli Məclisə təqdim olunub və müzakirə edilir.**

Hazırkı qanunvericiliyə əsasən, turist göndərən turoperatorla və ya turagentlə turist qəbul edən turoperator və ya xidmətləri təklif edən şəxslər arasında qarşılıqlı ödəmələr turizm vauçeri əsasında həyata keçirilirdi. Nağdsız ödənişlərə keçidin başlıca faydası ondan ibarətdir ki, ticarət və digər xidmət sahələrində vergidən yayınmanın qarşısı alınır. Nəticədə bundan həm dövlət büdcəsi gəlir götürür, həm də cəmiyyət faydalanır. İqtisadçıları və turagentlikləri narahat edən əsas məqam isə odur ki, vətəndaşların əksəriyyəti ödənişi nağd şəkildə etməyə üstünlük verir. Belə olan halda seçim imkanının olmaması, müştərilərin nağdsız ödəniş etmək məcburiyyətində qalması müraciət edənlərin də sayına təsir edir. Bu isə ümumilikdə turizm sektoruna mənfi təsirini göstərir. Turizm şirkətlərinin rəhbərləri də qanunvericilikdəki son dəyişikliyə münasibət bildirərkən qeyd ediblər ki, bu, onlara müraciət edənlərin sayını azaldacaq və işlərini axsadacaq.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, turizm sektorunda nağdsız ödənişlərə keçid problemlər yaradacaq:** "Hər hansı davranış qaydaları insanlar tərəfindən mənimsənilmədən yalnız qanunun sərtləşdirilməsi yolu ilə həyata keçirilirsə, bu, problemlərə səbəb olacaq. Bu qadağaların yanında təşviqlər olmadan, insanlara mahiyyəti izah edilmədən, bu dəyişikliyin üstünlükləri haqqında məlumat verilmədən belə addımların atılması doğru deyil. Əgər paralel olaraq təşviq proqramları qəbul olunsaydı, güzəştlər tətbiq edilsəydi ki, turizm şirkətlərinin xidmətlərindən nağdsız istifadə edənlərə endirimlər olacaq. Həmçinin turizm şirkətlərinə də təşviqedici təkliflər edə bilərlər ki, nə qədər çox nağdsız sifariş qəbul etsələr, vergilərdə onlara güzəştlər olacaq. Bu cür güzəştlər və təşviqlər olmadan, ancaq qadağalar yolu ilə bu məsələni həll etmək və qarşıya qoyulan məqsədə çatmaq mümkün olmayacaq. Əhalinin davranış qaydalarında da nağdsız ödənişlərə marağın kifayət qədər aşağı olduğunu nəzərə alaraq turizm mövsümünün başladığı dövrdə turizm şirkətlərinə belə bir məhdudiyyətin qoyulması kifayət qədər çətinliklər yaradacaq".



**N.Cəfərlinin sözlərinə görə, bu problem turagentliklər üçün müştərilərin itirilməsi və dövriyyənin azalması ilə nəticələnə bilər:** "Əslində formal olaraq bu qanunu pozmadan yanından keçmək mümkündür. Turizm şirkətləri də çalışacaqlar ki, qanundan yan keçsinlər. Belə ki, onlar nağd ödəniş alsalar da başqa bir şirkətin adı ilə köçürmə yolu ilə həmin biletləri, turist səfərlərini rəsmiləşdirə bilərlər. Bir müddət sonra qanun, sadəcə, formallığa çevriləcək. Bazarın buna adaptasiyası zaman alacaq. Nağdsız ödənişlərin tətbiqinin məqsədi dövriyyənin ağardılması və daha çox vergi cəlb olunmasıdır. Bu mənada hökumətin atdığı addımları anlayıram. Amma bunun sosial tərəfi, insanların marağını cəlb edən bir tərəfi olmasa, ciddi şəkildə effekt verməyəcək".

**Ekspert bildirdi ki, dünyada nağd ödəniş və nağdsız ödəniş deyə bir ayrı-seçkilik yoxdur:** "İnfrastruktur elə qurulub ki, insanların seçim imkanı var və nağdsız ödənişlər insanlar üçün daha rahatdır. Ona görə də insanlar nağdsız ödənişlərdən istifadə etməyi düşünürlər və belə addımlar atırlar. Bunun alternativi bir keçid dövrü elan etmək, qanunun tətbiqi üçün infrastrukturu hazırlamaq, insanlara bu üsulun daha rahat olduğunu izah etmək, təşviq proqramları həyata keçirmək, güzəştlər etmək və sair vasitələrlə tədricən həyata keçirməkdir".

**Turizm eksperti Çingiz İsmayılov isə hesab edir ki, "Turizm haqqında" Qanuna dəyişikliklərin edilməsi bu sektorun fəaliyyətinə daha da təkan verəcək:** "Qanunun tətbiqinin monitorinqi də aparılmalıdır. Məsələ ondadır ki, qanunlarımız yalnız turizm yox, bütün sahələrdə mükəmməlləşdirilir. Bu çox yaxşıdır. Əgər xidməti asanlaşdırmaq istəyirsənsə, nağdsız ödənişə keçməlisən, kart almalısan. Potensial müştərilər anlamalıdır ki, hansısa xidmətdən istifadə etmək üçün nağdsız ödəniş etməlidirlər. Turizm şirkətləri öz fəaliyyətlərini qanunauyğun qursalar, bu, səmərə verəcək. Lakin bunun müvafiq monitorinqi olmalıdır. Nazirlik turizm şirkətlərinə bunun müvafiq izahatını verməlidir, maarifləndirmə işləri aparmalıdır".

❑ **Nərgiz LİFTİYEVA**

# Azərbaycan ilk dəfə "Çempion layihə" mükafatına layiq görüldü



**İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi sahəsində Azərbaycanın uğurlu təcrübəsi olan Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi BMT-nin ixtisaslaşdırılmış qurumu olan Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) "Çempion layihə" mükafatına layiq görülüb. Bu barədə müsavat.com-a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.**

BTİ-nin Cenevrə şəhərində (İsveçrə Konfederasiyası) keçirilən "İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti 2017" tədbirində "Çempion layihə" mükafatı Təşkilatın Baş Katibi Xoulin Çjao tərəfindən Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayevə təqdim olunub.



Bununla da Azərbaycan İKT-nin uğurlu tətbiqi sahəsində ilk dəfə olaraq BTİ-nin mükafatına layiq görülüb.

Ölkəmizdə dövlət idarəçiliyi və əhaliyə dövlət xidmətlərinin müasir əsaslar üzərində səmərəli və şəffaf təşkilində, informasiya və məlumatlandırma sistemlərinin imkanlarının artırılmasında informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadə geniş vüsət alıb. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən də İKT-nin uğurlu tətbiqi şəraitində son illərdə aparılan mühüm islahatlar əmək və sosial müdafiə, əlilliyin qiymətləndirilməsi sahələrində qabaqcıl təcrübə nümunələri formalaşdırılmaqla, həmin sahələrdə idarəetmə və xidmətlərin keyfiyyətinin xeyli yüksəlməsinə yol açıb. Artıq 3 ilə yaxındır ki, tətbiq edilən, Azərbaycanın yerli mütəxəssislərinin bilik və bacarığının məhsulu olan Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi əmək bazarına nəzarətin operativ və səmərəli təşkilində, bu sahə ilə bağlı dəqiq uçotun aparılmasında, əmək münasibətlərinin elektron müstəvidə şəffaflaşdırılmasında, əmək və sosial hüquqların təminatında xüsusi əhəmiyyət kəsb edir.

Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi "Elektron hökumət" portalında geniş istifadəçi kontingenti ilə seçilir. 450 elektron xidməti özündə əhatə edən "E-hökumət" portalına ötən dövrdə 47,2 milyona yaxın müraciət qeydə alınıb ki, onlardan 7 milyona yaxını və ya 14,6 faizi məhz Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sisteminə aid olub.

BTİ tərəfindən cari ilin 30 mart-30 aprel tarixlərində "İnformasiya Cəmiyyəti üzrə Ümumdünya Sammiti - 2017 Mükafatları" müsabiqəsində müxtəlif ölkələrin, o cümlədən Azərbaycanın ayrı-ayrı hökumət və qeyri-hökumət qurumları tərəfindən elektron sistemlərə dair layihələr təqdim olunub. Ümumilikdə 467 elektron layihədən 345-i uğurlu hesab edilərək müsabiqədə iştirak etməyə buraxılıb. Onlardan 41-i MDB regionundan təqdim edilib. Həmçinin müsabiqədə iştirak edən elektron layihələrin 143-ü dövlət sektoruna, 77-si biznes sektoruna, 56-sı vətəndaş cəmiyyətinə və s. aid olub.

Ümumilikdə 18 nominasiya üzrə onlayn səsvermə əsasında keçirilən müsabiqə nəticəsində nominasiyaların hər biri üzrə ən çox səs toplayan ilk 5 layihə müəyyən olunub. Həmin layihələrdən ibarət 90 "Çempion layihə" seçilib. Azərbaycandan təqdim olunan layihələrdən Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemi də "İKT Proqramları: E-Məşğulluq" nominasiyası üzrə ən çox səs toplayan ilk 5 layihədən biri olub və "Çempion layihə"lər sırasında yer alıb.

Hazırda 193 ölkənin üzv olduğu, bir sıra İKT tənzimləyicilərini, aparıcı elmi institutları, 700-ə yaxın texnoloji şirkəti əhatə edən BTİ beynəlxalq telekommunikasiyanın nizamlanması, standartlaşdırılması, uzlaşdırılması və inkişafı, eyni zamanda bu sahədə dövlətlərin siyasətinin uyğunlaşdırılması istiqamətində fəaliyyət göstərir.

❑ **Musavat.com**

# Neftin qiyməti Amerikadan asılı qalıb...

## Hansı beynəlxalq proseslər "qara qızıl"ı bahalaşdıra bilər?



**Əgər əvvəllər neftin qiyməti siyasi hadisələrdən asılı olaraq bahalaşırdısa, indi bu amillər qara qızılın dəyərinə demək olar ki, təsir göstərmir. Son olaraq Yaxın Şərqdə yaranmış böhran da onu göstərdi ki, siyasi münaqişə ocaqlarının yaranması, dövlətlərin arasında münasibətlərin gərginləşməsi kimi amillər artıq dünya birjalarına o qədər də ciddi təsir göstərmir. Bəs görəsən, hazırda dünya enerji bazarındakı durumu hansı amillər tənzimləyir? Neft nəyin əsasında bahalaşır və ucuzlaşır?**

Bu sualı cavablandıran **Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban** bildirdi ki, neftin qiyməti hazırda faktiki olaraq Amerika Enerji Administrasiyasının açıqlamalarından asılıdır: "Ancaq bu yöndə hadisələrin inkişafı neftin qiymətinə təsir edir. Nə Qətər hadisələri, nə Yaxın Şərqdə Suriya ətrafında baş verənlər neftin qiymətinə elə də təsir etmir. Düzdür, müəyyən qısamüddətli təsirlər olur, ancaq qısa zamanda korreksiya edilir və əvvəlki yerinə qayıdır. Biz neftin qiymətinin artıq ötən həftədən 48 dollar ətrafında alınıb-satıldığını müşahidə edirik. Faktiki olaraq, ekspertlər hazırkı qiymətini neftin real qiyməti hesab edirlər. Bundan əvvəlki qiymət, sadəcə, OPEK tərəfindən qızdırılmış qiymətlər idi. Onlar hasilatın azaldılması kimi bəyanat verməklə bazarı qızdırırdılar. Artıq bu təsirlər götürülüb, neft bazarda öz real dəyəri ilə alınıb-satılır. Hazırda 20-30 sent bahalaşma və ya ucuzlaşma müşahidə edilir. O da hər çərşənbə günü Amerika Enerji Adminstrasiyasının ABŞ-ın neft ehtiyatları ilə bağlı açıqladığı rəqəmlərdən, bu rəqəmlərin proqnozlarla üst-üstə düşüb-düşməməsindən asılı olur".

**İ.Şabanın sözlərinə görə, artıq elə bir yüzdə-yüz qanunauyğunluq yoxdur ki, ABŞ-ın neft ehtiyatları azalırsa, qiymətlər artmalıdır:** "Bu hər dəfə baş vermir. Bəzən bu qanunauyğunluğun əksi olan proseslər baş verir. Bunun əksinə olaraq, ABŞ-da neft ehtiyatı azalır, lakin neft məhsullarının satışında artım baş verir. Bu kimi hadisələr bazarda həmişə özünü bu və ya digər proseslərdə əks etdirir. İyul və avqust ayı üçün neftin qiyməti 47-48 dollar proqnozlaşdırılır. Yaxın müddətdə hər hansı hadisə baş verməsə, neftin qiymətinin bundan çox artması müşahidə etmək mümkün olmayacaq. Real tələb-təkliflər əsasında neftin qiyməti 50 dollardan aşağıdır".

**Ekspert vurğuladı ki, Yaxın Şərq böhranı da hər hansı şəkildə qiymətlərə təsir etmir:** "Qətər çox kiçik neft ölkəsidir, 600 min barel neft ixracı var. Onun dünya bazarına təsiri demək olar ki, yoxdur. Digər ölkələrdə isə hasilat artır, ona görə də qiymətlər bu səviyyəyə enib. Qətərin neft hasilatı indiki səviyyədən aşağı düşsə belə, onun bazara təsirinin olacağını düşünmürəm. Çünki ixracatçı ölkə kimi tanınmır. Ona görə də Yaxın Şərq böhranı neftin qiymətini tətikləmir. Arada heç bir müharibə yoxdur, yalnız diplomatik qalmaqal var. Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə heç bu ölkənin tankerlərinin öz limanında yanacaq götürməsinə imkan vermirlər. Ancaq alternativ olduğu üçün bunun ciddi bir təsiri yoxdur".

❑ **Nərgiz LİFTİYEVA**

**Son zamanlar Rusiyanın parçalanacağı ilə bağlı fikirlər intensiv şəkildə səslənir. Dünyanın müxtəlif ölkələrinin tanınmış simaları proseslərin bu şəkildə davamının şimal qonşumuz üçün fəlakətlə nəticələnəcəyini, sonunda Rusiya Federasiyasının bir neçə yerə ayrılacağını proqnozlaşdırırlar.**

# Rusiya və İran parçalansa - bu, Azərbaycana nə vəd edir...

## Elçin Mirzəbəyli: "Dünya Rusiya kimi nəhəng nüvə dövlətinin parçalanmasına hazır deyil"

Hətta ABŞ-ın "Stratfor" analitik mərkəzinin qurucusu Corc Fridman Rusiyanın 2020-ci ilə qədər parçalanacağını deyir. Son olaraq, Polşa müdafiə nazirinin keçmiş müavini Romuald Şeremetyev Kremlin dağılmasından danışıb: "Rusiyanın xəritəsinə nəzər salmaq kifayətdir. Onun sərhədlərində yalandan müstəqil respublikalar və muxtar vilayətlər yerləşir, Moskvanın birmənalı şəkildə Rusiyanın saydığı ərazilərdə isə ruslara dəxli olmayan çox böyük milli qruplar yaşayır. Rusiya silahlı qüvvələrində müsəlmanların sayı 30%-i keçir... Rusiyalılar Çeçenistanı ram edə bildilər, amma problemlər qalır, zaman-zaman geri dönür".

Rusiyada son günlərdəki kütləvi antikorrupsiya aksiyalarından sonra belə fikirlərin sayı daha da artıb. Neftin qiymətinin aşağı düşməsi, üç ildir Qərbin sanksiyaları altında qalması, bunların da üstünə ölkə daxilində irimiqyaslı aksiyaların əlavə olunması Vladimir Putin hakimiyyəti üçün heç də xoş sonluq vəd etmir.

Cənub qonşumuz İranın da vəziyyətinin ürəkaçan olmadığı vurğulanır. Rusiyanın yanında dayanan, Qərblə münasibətləri soyuqlaşdıran rəsmi Tehranın sonunda bunun bədəlini ödəyəcəyi bildirilir.

Hər iki dövlətin fonunda Azərbaycan məsələsi də gündəmdədir. Belə ki, Rusiya və İranın parçalanmasının rəsmi Bakı üçün nə vəd etməsi ilə bağlı müxtəlif fikirlər var.

**Politoloq Elçin Mirzəbəyli deyir ki, Romuald Şeremetyevin öncəgörənliyi müəyyən qədər Polşada mövcud olan aqressiv anti-Rusiya əhval-ruhiyyəsindən qaynaqlanır:** "Ehtimal olaraq istənilən ölkənin, xüsusilə də federativ sistemə malik dövlətlərin parçalanması mümkündür. Lakin bu prosesin hətta ehtimal olaraq da qısa bir zamanda baş verəcəyi imkansızdır. Dünya Rusiya kimi nəhəng bir ölkənin, həm də nüvə dövlətinin parçalanmasına hazır deyil. Bu çox böyük fəlakətə yol aça bilər. Xüsusilə də Avropa dövlətləri, elə Polşanın özü üçün də. Təsəvvür edin, Rusiya parçalanır, federasiyanın ayrı-ayrı subyektləri müstəqillik əldə etməyə çalışırlar. Mərkəzi hakimiyyət, ordu, xüsusi xidmət orqanları oturub bu prosesi müşahidə edəcəklər? Təbii ki, yox. İlk hədəf elə Avropanın özü olacaq. Zənnimcə, Qərbin Rusiyanı parçalamaq niyyəti yoxdur. Ola bilsin ki, bu ölkəni qlobal proseslərdən təcrid etmək, başını öz problemlərinə qatmaq istəyirlər. Avrasiya məkanında davamlı sülhə və sabitliyə nail olmağın yeganə yolu Rusiyanın demokratikləşməsidir. Neftin qiymətinin aşağı düşməsi, sanksiyalar və mitinqlər Rusiyanı zəiflədə bilər. Lakin bu proses daha aqressiv və qabarıq şəkildə aparılarsa, Rusiyanın öz sərhədlərindən kənarda müharibəyə başlayacağı ehtimalı daha çoxdur. İranla bağlı vəziyyət Rusiyadan fərqlidir. 2015-ci ildə aparılan siyahıyaalmaya görə, Rusiyada əhalinin 77,45 faizini ruslar təşkil edir. İranda isə əhalinin, rus və Qərb mənbələrində apardığım ümumiləşdirməyə görə, 40 faizini türklər təşkil edir. Bu isə 31 milyon deməkdir. Şübhəsiz ki, Azərbaycanın qonşuluğunda baş verən istənilən hadisə, xüsusilə də böyük dövlətlərin parçalanması ölkəmizə də təsirsiz ötüşə bilməz. Nəhəng dövlətlər, imperiyalar parçalananda qlobal kataklizmlər qaçılmaz olur. Proseslərin müsbət və mənfi məcraya yönəlməsi isə xalqın potensialından, hazırlığından asılıdır".





**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli SSRİ-nin də neftin qiymətinin aşağı düşməsindən sonra dağıldığını qeyd etdi:** "İndiyə qədər Rusiyanın dağılması barədə çox adam proqnoz verib. Xatırladaq ki, Rusiyanın xələfi SSRİ də məhz neftin qiymətlərinin düşməsindən təlatümlərə uğradı və sonu hamıya bəllidir. Putin nə qədər desə ki, sanksiyaların, neftin düşməsinin bizə heç bir ziyanı yoxdur, əksinə, Rusiyanın ÜMD-i gücləndi, korrupsiyaya qarsı son keçirilən sanksiyalaşmamış mitinqlər belə göstərdi ki, sanksiyalar da, neftin qiymətinin düşməsi də rus xalqının cibinə böyük mənfi təsir göstərdi. Rusiyada korrupsiya həmişə olub, bəs niyə indi cəmiyyətdə bu cür narazılıq var? Çünki əvvəlki pullar Rusiyaya gəlmir, bu da artıq özündən xəbər etməyə başlayır. Yəni artıq "Krım bizimdir", "biz Amerikaya hər yerdə əlcək atırıq, biz Suriyadayıq" siyasəti ilə xalqı razı salıb idarə etmək olmur. Rusiyada orta sinif var. Və bu orta sinfin imkanı çatır, gedib dünyanı gəzib görsün ki, ölkələri ciddi şəkildə geridə qalıb. Vaxt keçdikcə Rusiyada narazılıq daha da artır. Üstəlik, ənənəvi Şimali Qafqaz problemi. Rus xalqı öz hesabına, dotasiyada bu regionu saxlamaq istəmir. Ruslar açıq söyləyir biz Kadırova, tatar xanı kimi pul ödəyirik ki, sakit dursun. Kadırov isə həqiqətən Çeçenistanda bir xanlıq qurub və istədiyi kimi bu ölkəni idarə edir. Çeçenistanda Rusiya qanunları işləmir. Hələlik Kadırovun sadiqliyi Moskvadan gələn pulun və Putinlə şəxsi dostluğun hesabınadır. Sabah Kreml pulu kəssə və Kremldə başqa adam otursa, Kadırov həmin sadiqliyi göstərəcəkmi? Ümumiyyətlə, bütün imperiyalar sonunda dağılıb, Rusiya da dünyanın sonuncu imperiyası olduğu üçün o da dağılmalıdır və dağılacaq da. Son proseslər bu hadisəni daha da tezləşdirir. İranda rejimin yumşalması gedir, amma bu ölkənin dağılmasından danışmaq hələ tezdir. İranda rejim dəyişikliyi ola bilər və bu olan halda biz də çalışmalıyıq ki, orda yaşayan 40 milyon soydaşımız fars azlığı ilə bərabər hüquqa malik olsun, İranda demokratik idarəçilik olsun, türk dili də dövlət dili elan edilsin. Və İran demokratik, konfederasiya üsul-idarəsi ilə idarə edilsin. Regionun qarantına gəldikdə isə, əslə Rusiyanı regionun qarantı hesab etmirəm, əksinə, regionda bütün müharibələr, milli qarşıdurmalar, etnik təmizləmələrin arxasında Kreml durur. Ərazi bütövlüyü problemləri ilə Moskva postsovet ölkələrini artıq 30 ilə yaxındır şantaj edir. Onun üçün də şər imperiyası adlandırılan SSRİ-nin varisi Rusiyanın tezliklə dağılması və oradakı milli respublikalar, nəhəng regionların nəhayət ki müstəqillik əldə etməsi, nəinki region, bütün dünya üçün ancaq xeyir ola bilər".

**Əhəd Məmmədli:** "Rusiyanın xələfi SSRİ də məhz neftin qiymətlərinin düşməsindən təlatümlərə uğradı"

**❑ Cavanşir ABBASLI**

# Erməni generalın hədəsinə azərbaycanlı polkovnikdən cavab

## Üzeyir Cəfərov: "Jurnalistin Ter-Tadevosyana ünvanladığı suallardan və verilən cavablardan hiss olunur ki, ermənilər çaşqın halda və qorxu içindədir"



**Şuşanın işğalı əməliyyatında iştirak eləyən erməni hərbi birləşmələrinin komandiri olmuş terrorçu erməni general-mayor Arkadiy Ter-Tadevosyan iyunun 14-də Azərbaycana qarşı növbəti hədələr yağdırıb. Təqaüddə olan erməni general deyib ki, əgər Azərbaycan öz ərazilərini işğaldan azad etmək üçün müharibəyə başlasa, onlar Azərbaycanın bəlli olan bir neçə mühüm nöqtələrini vuracaqlar. Və sözünü də onunla əsaslandırmağa cəhd edib ki, guya onların hədəflədiyi həmin o "vacib nöqtələr" elə mühüm əhəmiyyətə malik obyektlərdir ki, onlara endiriləcək zərbələrdən sonra Azərbaycan yer üzündən silinəcək. Hədəf kimi də erməni terrorçu neft və qaz infrastrukturlarını sıradan çıxarmağı düşündüklərini bildirib.**

Arkadi Ter-Tadevosyanın hədələrinə Azərbaycanın tanınmış hərbi eksperti Üzeyir Cəfərov cavab verib. Ü.Cəfərov qeyd edib ki, hər zaman olduğu kimi bu sarsaq erməni yenə öz ənənəsinə sadiq qalaraq cəbhə bölgəsində baş verənlərə görə Azərbaycanı günahlandırmağa çalışıb: "Bu sarsaq indiyə kimi, az qala həftədə bir dəfə gah Mingəçevirdəki SES-i, gah da Bakı-Tiflis-Ceyhan neft kəmərini az qala 50-100 dəfə "vurub". İndi də bu ağıldan kəm erməni general bizi Bakı və ətrafdakı neft rezervuarlarını partlatmaqla hədələmək variantına keçib. Bu erməni axmağı indi də Azərbaycanı tam yeni bir əməldə-İrəvanı zəbt etmək niyyətində olması ilə şantaj etmək kimi hədyanlar səsləndirib. Aydın məsələdir ki, onun məqsədi yalandan da olsa, Azərbaycanı gözdən salmaqdır. Hərçənd ki, özü də gözəl bilir ki, bu gün ölkəmizin qarşısında duran bir nömrəli vəzifə Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad olunması və ərazi bütövlüyümüzün təmin olunması məsələsidir. Bu haqqı heç kim bizə qadağan edə bilməz və inşallah, tez bir zamanda həlli uzanan bu münaqişə də ədalətli şəkildə həllini tapacaqdır".

**Hərbi ekspert qeyd edib ki, jurnalistin Arkadiy Ter-Tadevosyana** ünvanladığı suallardan və verilən cavablardan hiss olunur ki, ermənilər çaşqın halda və qorxu içindədirlər. Özü də onlar indi əvvəlki illərdən fərqli olaraq bir-birini daha çox ittiham edir və işğal altında olan əraziləri qaytarmağa cəhd edəcək şəxsləri vətən xainləri kimi qələmə verməyə çalışırlar: "Ermənistanın daxilində çox böyük əsəbilik və çaşqınlıq hökm sürür. Artıq onların havadarları da bunların "iplərini" tam yığa bilmirlər. Proseslərdən bir balaca məlumatlı olduqlarına görə onlar Moskvanı da satqınçılıqda, Azərbaycanın mövqelərini daha çox müdafiə etməkdə suçlayırlar. Bir sözlə, bədnam qonşularımızın daha çox güvəndiyi və ümid etdikləri bu Arkadiy Ter-Tadevosyan tipli sərsəm generalların açıqlamalarından hiss olunur ki, vəziyyət onlar üçün heç də ürəkaçan deyil. Əslə mən bu fikirləri özümüzü sakitləşdirmək, arxayın salmaq üçün qeyd etmirəm".

**❑ E.SEYİDAĞA**

YENİ MÜSAVAT
N 128 (6742) 15 iyun 2017



# Beytulla müəllimin qohumları

Zamin HACI
zaminhaci@gmail.com

**Hamı işsizlikdən şikayətlənir, ancaq göz dəyməsin, bizdə cürbəcür işlər vardır. Misal üçün, "MTN işi", "Beynəlxalq Bankın işi", "Rabitəçilərin işi" və sairə. Nə qədər dövlət idarəmiz varsa, əvvəl-axır bunların hər biri üzrə cinayət işi açılır, danışmağa, yazmağa tema olur. Bizə yaratdığı bu münbit şəraitə görə rəhbərliyə dərin minnətdarlığımızı bildiririk. Yevlax rayonu Malbinəsi kəndində məskunlaşan məcburi köçkünlər adından Gülsüm Bəndəliyeva da bu minnətdarlığa bənd olur. İmkan olsa oxucularımız da qoşulsun, minnətdarlıq qatarı düzəldək, dünyanı gəzməyə çıxaq, göy qurşağından sallanaq, buludlardan tullanaq, Cocuq Mərcanlıda dillənək, xanım hey! Dədəm Qorqud gəlsin, boy boylasın, soy soylasın, toy tutsun, qazancı çox olsun, amin!**

Nəsə, elə bil söhbəti çox uzatdıq, necə deyərlər, nağıl dili yüyrək olar. Sizə kimdən nəql edim, "Rabitəçi işi"ndə adı keçən Beytulla müəllimdən. Beytulla Hüseynov dünən məhkəmədə dövlətə vurduğu ziyanı ödədiyini açıqlayıbdır. Halal olsun. Minnətdarıq. Kövrəlirik. Hətta bir neçə müəllim, pensiyaçı, əsgər Beytulla müəllimin ödədiyi zərər dövlət büdcəsinə keçən anda maaş kartını aparata soxmuşdur, pulun gəldiyini görüb sevindiyindən ürəyi partlamışdır. Bəs necə, az pul deyil e! Beytulla müəllim düz 10 milyon 200 min manat zərəri ödəmişdir! Deyir, bunu onun azadlıqda olan qohumları veribdir. Yenə də proseduru təkrar edək. Halal olsun. Minnətdarıq. Ağlaşırıq. *(Qoy təkrarda bir az şiddət artıq çıxsın, səmimilik görünsün).*

Vallah, çox əla qohumlardır. Sizin belə qohumlarınız varmı, iraq olsun? Üstəlik, rəsmi statistikaya baxsan heç bizdə bir milyonçu da yoxdur. Məmur tutulanda isə pul yığa bilirlər. Məmurları qohumbazlıqda qınayanlar dərs götürsün. Axı indi Beytulla müəllimə biz əl tutmadıq, qohumları tutdu! Ona görə məmuru vəzifədə olarkən pulları qohum-əqrəba cibişdanına axıtmaqda suçlamaq, yumşaq yazsam, günahdır.

Özü də Beytulla müəllim Bakı Telefon Rabitə İstehsalat Birliyi kimi əcaib adlı idarənin müdiri olubdur. Mən bunun qısaltmasını Beytulla müəllim tutulanda açmışdım: BTRİB - yəni idarəni yeyib-bitirib. Həqiqətən, kasıb itinin adını Gümüş qoyması tipində bir idarədir. Telefon rabitəsində hansı istehsal var ki, bunu İstehsalat Birliyi adlandırıblar? Bu adı qoyan axmağın yekəsi olubdur. Hərçənd mən bundan da idiot adlı idarə görmüşəm. Bu yaxında bir mülk kağızının (kupça) üzərində oxudum: "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı Şəhər Ərazi İdarəsi, Daşınmaz əmlakın kadastrı və texniki inventarlaşdırma şöbəsi". Təsəvvür edin. Sonra da camaatı qınayırlar ki, niyə qanunsuz tikilidə yaşayırlar, evlərinin sənədləri yanlış olur və sairə. Bu idarədən sənəd almaq üçün yox, elə təkcə adını oxuyub qurtarınca tikdiyin ev tarixə qovuşar. Yadıma lap o paytaxt lətifəsi düşdü. Təyyarə qəzaya uğrayır, pilot deyir sual verəcəyəm, cavab tapana paraşüt veriləcək. Gürcüdən Fransanın, ermənidən Rusiyanın paytaxtını soruşur, paraşüt verir. Azərbaycanlıya növbə çatanda deyir: "Madaqaskarın paytaxtı haradır?" Azərbaycanlı yazıq-yazıq cavab verir: "Ta ondansa denən paraşüt vermək istəmirəm də!"

Yadımdan çıxmamış, Beytulla müəllim həm də "Bakinternet" adlı əfsanəvi internet provayderinin yiyəsi idi - bu, BTRİB-in yüz minlərlə abunəçiyə rəqabətsiz, alternativ olmadan verdiyi tək internet şirkətidir. İstəyirsən lap "Azərspase" peykinin müdiri doğmaca dayın olsun, xeyri yoxdur. Ev telefonu üzərindən interneti ancaq bu "Bakinternet" verir. Ta necə verir, onu zəhmətkeşlərimizin ixtiyarına buraxaq. İp ucu olaraq deyim ki, bayaq "əfsanəvi" sözünü birbaşa mənasında yazmışdım. Çünki "Bakinternet"lə dünyaya çıxan adam, həmçinin bu şirkətin müştəri xidmətinə düşməyi bacaran istedad haqda əfsanə danışırlar.

Sonda Beytulla müəllimin qohumlarından xahiş edirik, imkan varsa, "Beynəlxalq Bank"ın xarici borclarını da bağlasınlar.




# Ermənilərin Naxçıvandan "ikinci cəbhə" xofu - düşmənin qorxulu röyası

"Kiçik torpaq"da Türkiyə-Azərbaycan ortaq təlimləri Ermənistanda təlaşı daha da artırıb - əsas səbəb; **azərbaycanlı politoloq:** "Naxçıvan sizə indi 1992-ci ilin Kəlbəcəri deyil, oradan İrəvana elə bir zərbə endirilə bilər ki..."

**Xəbər verdiyimiz kimi, Naxçıvanda Azərbaycan və Türkiyənin ikitərəfli hərbi əməkdaşlıq çərçivəsində birgə taktiki hərbi təlimləri başlayıb. Təlimlərdə 5 min hərbçi iştirak edir. Bu, son bir ayda iki qardaş ölkə arasında ikinci böyük təlimdir həyata keçirilir.**

Gözlənildiyi kimi, Azərbaycan və Türkiyənin Silahlı Qüvvələrinin intensivləşən ortaq hərbi manevrləri ən çox işğalçı Ermənistanda təşviş yaradıb. O sırada son olaraq, hakimiyyət ortağı "Daşnaksütyun" Partiyasının rəsmisi Kiro Manoyan davam edən hərbi təlimlərin Ermənistan və İrana mesaj olduğunu bəyan edib.

Onun sözlərinə görə, ATƏT-in Minsk Qrupu həmsədrləri Dağlıq Qarabağda böyük müharibənin başlanmasına izn verməməlidir. Daşnak rəsmisi daha sonra öz xəbis xislətinə sadiq qalaraq bildirib: "Ermənistan gərək Naxçıvanın zorla Azərbaycana qatılması məsələsini və onun beynəlxalq statusunu qaldırsın".

*****

Belə bir klassik sərsəmləməyə bəlkə də şərh verməyə dəyməzdi. Ancaq Dağlıq Qarabağ kimi, Naxçıvanın da heç vaxt Ermənistanın tərkibində olmadığı çoxdan sübuta ehtiyacı olmayan aksiomdur. Əgər Ermənistan adlı qondarma və süni dövlətin özü Azərbaycan torpaqlarında Rusiyanın bilavasitə dəstəyi ilə təşəkkül tapıbsa, Naxçıvan və ya Dağlıq Qarabağ necə zorla Azərbaycana birləşdirilə bilərdi? Bu, əlbəttə ki, erməni həyasızlığının növbəti təzahürüdür.

Bundan əlavə, Manoyanın başqa bir iddiasına da yəqin ki, diqqət edildi. İddia edir ki, guya Naxçıvandakı hərbi təlimlər həm də İrana mesajdır. Ermənistanın 1 nömrəli havadarı Rusiyaya yox, məhz İrana mesaj imiş! Sözsüz ki, bu da növbəti daşnak uydurmasıdır. Nədən ki, nə Azərbaycanın, nə də Türkiyənin İranla hər hansı problemi, o cümlədən təhlükəsizliklə bağlı problemi yoxdur. Üç ölkə arasında ərazi, torpaq mübahisəsi də mövcud deyil. Əksinə, son illər üç qonşu müsəlman dövləti arasında, xüsusən də Azərbaycanla İran arasında iqtisadi, kommunikasiya, tranzit-nəqliyyat sahələri (Şimal-Cənub nəqliyyat dəhlizi və s.) üzrə əməkdaşlıq dərinləşib.

Bu da ən çox işğalçı ölkəni narahat edir, ona görə ki, Ermənistanın bölgədə iqtisadi, nəqliyyat təcridi daha da güclənir, onun tranzit ölkə kimi olan-qalan önəmi sıfırlanır. O üzdən İrəvanda çox arzulayırlar ki, regionun üç mühüm müsəlman ölkəsi arasında münasibətlər heç vaxt sahmana düşməsin, inkişaf eləməsin və korlansın, həmişə sərin qalsın.

Doğrudur, İranın Ermənistanla normal münasibətləri var. Lakin bu daha çox, siyasi-diplomatik münasibətlərdir. İqtisadi önəminə görə isə Azərbaycan cənub qonşumuz üçün daha vacib ölkədir və bunu son iqtisadi gəlişmələr də təsdiqləyir. Yeri gəlmişkən, daşnakların yadına onu da salaq ki, bu ay Tehranda üç ölkənin - İran, Azərbaycan və Rusiya prezidentlərinin zirvə görüşünün keçirilməsi gözlənilir.

*****

**"Erməni siyasət adamları vaxtaşırı Naxçıvan mövzusunu aktuallaşdırmağa çalışırlar - yaxşı başa düşə-düşə ki, boş şeylə məşğuldurlar, çünki Naxçıvanı qulaqlarının dibini görəndə görə bilərlər". Musavat.com-un məlumatına görə, bu barədə politoloq-jurnalist Tofiq Abbasov Kiro Manoyanın yuxarıdakı sərsəmləməsi ilə bağlı minval.az saytındakı məqaləsində yazıb.**

**Onun sözlərinə görə, ermənilər bununla yəqin ki, uzaqgedən məqsəd güdərək, regionda genişmiqyaslı geosiyasi xaosun dolağını açmaq istəyirlər:** "Hədəf də bölgənin iki mərkəzi oyunçusu olan Türkiyə və İranı alın-alına toqquşdurmaqdır".

"Bu, İrəvanın çoxdankı arzusudur ki, özünü "yağlı tikə" qismində görsün və onun uğrunda nüfuzlu oyunçular sonadək vuruşsunlar. Lakin ermənilər bağışlanmaz şəkildə qızıl vaxtı itirdilər və regionda cəlbedici geosiyasi material çevrilə bilmədilər. Ermənilərin bitib tükənməyən əzabları da elə buna görədir", - deyə politoloq qeyd edib.

**O, Naxçıvana diş qıcayan, dil uzadan düşmənə xəbərdarıq da edib.** "Möcüzə bir dəfə baş verir. Naxçıvan indi sizə 1992-ci ilin Kəlbəcəri deyil. Muxtar respublika təkcə zəmanətli şəkildə qorunmur. O, eyni zamanda elə bir cavab vermək gücündədir ki, düşmənə əsla az görünməz. Üstəlik, İrəvan Naxçıvandan asan hədəfə gələn xətt üzrə yerləşir" - ekspert əlavə edib.

*****

Bu, gerçəkdən də belədir. Naxçıvan son vaxtlar bütün mənalarda işğalçı ölkənin qorxulu röyasına çevrilib. Həm də o səbəbə ki, bölgə Qars müqaviləsinə görə Türkiyənin qarantı altındadır və əgər Qarabağda müharibə başlasa, Ermənistana qarşı arxadan olduqca təhlükəli ikinci cəbhə aça bilər.

Vaxtaşırı Mingəçevir su anbarını partlatmaqla hədələyən erməni "strateqləri" gərək qulaqlarında bunu da sırğa eləsinlər ki, Naxçıvanın ucqar sərhədindən İrəvana qədər olan məsafə cəmi 45-50 km-dir. Metsamor AES-i də oradakı raket sistemlərimizin tamamilə hədəfinə gələn bir məsafədə yerləşir.

❑ Siyasət şöbəsi



# "Müttəfiqlərə qarşı casusluq etmək nalayiq hərəkətdir" - Vladimir Putin

**Rusiya prezidenti Vladimir Putin ABŞ-ın Rusiya ərazisində kəşfiyyat fəaliyyəti həyata keçirməsinə qarşı olmadığını, amma müttəfiqlərə qarşı casusluq etməyin nalayiq hərəkət olduğunu bildirib.**

"Report" "İnterfaks"a istinadən xəbər verir ki, bu barədə V.Putin "Showtime" kanalında göstərilən tanınmış rejissor Oliver Stouna müsahibəsində bildirib.

O, bunu rejissorun ABŞ-ın çox güman Rusiya ilə bağlı kəşfiyyat həyata keçirəcəyinə dair atmacasının cavabında verib.

Eyni zamanda onun sözlərinə görə, Rusiya xüsusi xidmət orqanları vətəndaşlarını izləmir və dinləmir, ABŞ-dan fərqli olaraq, Rusiyanın bu cür texniki imkanları yoxdur.

"Bizim belə texniki imkanlarımız yoxdur. Bu cür kütləvi əhatə dairəsi, şəbəkəmiz yoxdur. Bunu sizə tam məsuliyyətlə deyirəm", - V.Putin bildirib.

Rusiya prezidenti həmçinin ölkəsinin xüsusi xidmət orqanlarının müxtəlif dini konfessiyaların nümayəndələri haqqında heç bir məlumat toplamadığını vurğulayıb.

"100% belə şey yoxdur. Bizdə heç vaxt İslam, xristianlıq, yəhudilik arasında münaqişə olmayıb. Özü də İslam icmasının nümayəndələri də Rusiya vətəndaşlarıdır. Onların bir vətəni var - Rusiya", - V.Putin xüsusi xidmət orqanlarının müsəlmanlar barədə məlumat toplaması ilə bağlı sualın cavabında deyib.

# Azərbaycan və Rusiya prezidentlərinin bir ayda iki görüşü ola bilər

## Qabil Hüseynli: "Bölgədə gedən proseslər Azərbaycanın xeyrinə cərəyan edir"

**Yaxınlarda Azərbaycan və Rusiya prezidentlərinin Ümumrusiya Azərbaycanlıları Konqresinin ləğvindən sonraya təsadüf edəcək ilk görüşünün olacağı gözlənilir. Belə ki, Azərbaycan prezidenti İlham Əliyevin Qazaxıstanın paytaxtı Astanaya gedəcəyi xəbəri yayılıb. Qazaxıstandakı səfirimiz Rəşad Məmmədova istinadən yayılan xəbərdə ölkə başçısının "Gələcəyin Enerjisi" EKSPO-2017 beynəlxalq sərgisi çərçivəsində Azərbaycanın milli pavilyonunun açılışına qatılacağı bildirilir.**



Məlumatlara görə, Astanada Azərbaycan və Rusiya prezidentləri-İlham Əliyev və Vladimir Putinin bir araya gəlməsi də istisna olunmur.

Bu ay Tehranda da Azərbaycan və Rusiya rəhbərlərinin görüşü gözlənilir. "Yeni Müsavat"ın xəbər verdiyi kimi, əsasən "Şimal-Cənub" nəqliyyat dəhlizi ilə bağlı layihələrin icra vəziyyətinə həsr olunacaq zirvə görüşü çərçivəsində öncə İran, Azərbaycan və Rusiya liderlərinin üçlü təması olacaq. Yəni Astana təması baş tutmasa belə, İlham Əliyevlə Vladimir Putinin tezliklə bir araya gələcəyi gözlənilir.

**Azərbaycan prezidenti ilə Rusiya prezidentinin görüşündən gözləntilər barədə politoloq Qabil Hüseynli "Yeni Müsavat"a fikirlərini bölüşüb.**

**Qabil Hüseynli bildirdi ki, Rusiyanın mövqelərinin dünyada zəifləməkdə olması fonunda Azərbaycanın Rusiya üçün də, İran üçün də önəmi durmadan artır. Bu vəziyyət isə keçirilməsi gözlənilən görüşlərdə Azərbaycanın üstünlüyü baxımından öz təsirini göstərəcək:** "Açığını etiraf etmək lazımdır ki, bölgədə gedən proseslər Azərbaycanın xeyrinə cərəyan edir. Məsələn, ABŞ tərəfi Cənub Qaz Dəhlizi layihəsinin üzərində ciddi surətdə dayanmağa başlayıb və Baltik dənizindən keçəcək ikinci Rusiya-Avropa qaz kəmərinin çəkilişinə isə əngəllər yaradılmaqdadır. Üstəlik də bugünlərdə Konqresdə Rusiya üçün sanksiyalar paketinin yeni daha ağır formasının hazırlandığı bildirilir və bunun qəbul ediləcəyi ehtimalı da böyükdür. Digər tərəfdən, Rusiyanın daxilində kütləvi etirazlarla müşayiət olunan hərəkat yüksələn xətt üzrə davam edir. Yəni ölkə əhalisinin ölkənin siyasi elitasına etimadının elə də yüksək olmadığı göz önündədir. Bir sözlə, Rusiya rəhbərinin vəziyyəti getdikcə tündləşməkdədir. Belə bir şəraitdə Putin əvvəlki kimi ambisiyalı və təkəbbürlü davranmaq tərzindən əl çəkməyə başlayıb. Bunu Amerika televiziyalarından birinə verdiyi müsahibədən də görmək olar. Rusiya prezidenti ABŞ-la danışıqlara can atdığını açıq bəyan edir. Belə bir fonda Azərbaycan prezidentinin mövqeləri daha da möhkəmlənməkdədir. Məsələn, Azərbaycan prezidentinin türk dünyası ilə əlaqələri güclənir, İranla münasibətlər də Azərbaycan üçün əlverişli istiqamətə getməkdədir. Yaranmış situasiya danışıqlar masası ətrafında özünü büruzə verməlidir. Zənnimcə, həm Astanada, həm İranda gözlənilən görüşlərdə Azərbaycan prezidenti kifayət qədər özünə güvənli bir şəkildə danışıqlar prosesində iştirak edəcək".

**Politoloq onu da dedi ki, Qazaxıstanda açılacaq sərgi Azərbaycanda bu yaxınlarda açılmış eyni adlı sərgidən sonra açılır. Azərbaycanda illərdir ki, bu sərgi ənənəvi olaraq davam edir və sərgiyə Azərbaycanda daha çox Avropa və Amerika dövlətləri qatılır. Yəni Azərbaycanın bu məsələdə böyük təcrübəsi var və bu da Azərbaycan prezidentinə əlavə üstünlüklər gətirir:** "Hesab edirəm ki, Astanada keçiriləcək tədbirdə Vladimir Putinlə söhbət olacaq. Çünki hazırda Putinin belə söhbətlərə Əliyevdən daha çox ehtiyacı var. Rusiyanın yuxarıda dediyim kimi, vəziyyəti elə də yaxşı deyil. Ona görə də Putinə ikitərəfli danışıqlar daha çox ehtiyacdır. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan və onun rəhbəri ilə danışıqlar, məncə, Putin üçün əhəmiyyətlidir".

**Q.Hüseynli vurğuladı ki, İranda keçiriləcək görüşdə isə Azərbaycanın mövqeləri daha üstün olacaq. Çünki "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsində Azərbaycan aparıcı ölkədir:** "Rusiya da, İran da Azərbaycanın bölgənin həm elmi-texniki cəhətdən, həm iqtisadi imkanları baxımından, həm də ölkə rəhbərinin bu proseslərə münasibəti baxımından lider səviyyəsində olduğunu qəbul etməkdədirlər. Hər iki görüşdə Azərbaycan prezidentinin iştirak etməsi Azərbaycanın qarşısında duran bir sıra problemlərin həlli baxımından əhəmiyyətli hadisə ola bilər. ÜAK məsələsi əslində xırda məsələdir. Bu məsələni ÜAK sədrinin özü də həll edə bilər. Prezidentlərin görüşündə daha böyük məsələlərin müzakirə edilməsi gözləniləndir. Məsələn, Qarabağ məsələsi ilə bağlı ciddi fikir mübadiləsi ola bilər. Çünki son dövrlərdə Rusiya sülh danışıqları ilə bağlı verdiyi vədlərin çoxunu yerini yetirməyib. Azərbaycanın qarşı tərəfə kifayət qədər deyiləcək sözləri var. Azərbaycanın indiki dövrdə Rusiyaya əl uzatmasının Rusiya üçün ağırlaşmaqda davam edən proseslərdə xeyli əhəmiyyəti ola bilər".

❑ **Etibar SEYİDAĞA**

# MDB ölkələri Gömrük xidməti rəhbərləri Şurasının iclası keçirildi

**Bakıda Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv ölkələrin Gömrük xidməti rəhbərləri Şurasının 65-ci iclası keçirilib.**




Virtualaz.org-un məlumatına görə, iclasda Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Özbəkistan gömrük xidmətləri, həmçinin MDB İcraçı Komitəsinin nümayəndələri iştirak ediblər.

İclasda mövcud gömrük qanunvericiliyi və onun tətbiqi praktikasının təkmilləşdirilməsinə dair bir sıra aktual məsələlər müzakirə olunub.

Tədbir çərçivəsində bir sıra sazişlərin müddəalarının dəyişdirilməsinə yönəlmiş sənədlər təsdiq edilib. Xüsusilə gömrük məsələlərində əməkdaşlıq və qarşılıqlı yardım haqqında 1994-cü il sazişinə düzəlişlər qəbul edilib.

Bu düzəlişlər gömrük xidmətlərinin müraciətlərinə əsasən informasiya mübadiləsinin təşkilinə aiddir. Bu cür mübadilə mərkəzi gömrük orqanları arasında olduğu kimi, bilavasitə ərazi gömrük orqanları arasında da mümkün olacaq.

Azad ticarət zonasının yaradılması haqqında 15 aprel 1994-cü il tarixli sazişin bir sıra MDB iştirakçısı olan dövlətlər üçün qüvvədən düşməsi ilə əlaqədar olaraq, azad ticarət zonasının yaradılması haqqında sazişin iştirakçısı olan dövlətlər arasında hərəkət edən malların gömrük qeydiyyatı və gömrük nəzarətinin qaydaları haqqında 8 oktyabr 1999-cu il tarixli sazişinə və MDB iştirakçısı olan dövlətlərin ərazisində tranzit qaydaları haqqında 4 iyun 1999-cu il tarixli sazişə dəyişikliklər edilməsi haqqında protokol layihələri təsdiq olunub. Şuranın qərarı ilə MDB gömrük orqanlarında risklərin idarə olunması sisteminin idarə olunması, reallaşdırılması və daha da təkmilləşdirilməsinə vahid yanaşmaların bərqərar edilməsi məqsədilə MDB iştirakçısı olan dövlətlərin gömrük orqanlarının fəaliyyətində risklərin idarə olunması sisteminin tətbiqinin nümunəvi qaydası təsdiq edilib.

Sənəddə risklərin idarə olunması sisteminin əsas məqsədləri, vəzifələri, quruluş prinsipləri, risk təhlilinin obyektləri, risklərin idarə olunması sisteminin elementləri, risklərin minimallaşdırılması mexanizmi, həmçinin malların buraxılışından əvvəl və sonra risk profilləri və indikatorları layihəsinin hazırlanmasında və nəzərdən keçirilməsində gömrük orqanlarının vəzifəli şəxslərinin fəaliyyət qaydası müəyyən olunub. MDB iştirakçısı olan dövlətlərin gömrük xidməti rəhbərləri Malların təsviri və kodlaşdırılmasının harmonikləşdirilmiş sisteminin 6-cı nəşrinə verilmiş izahların rusdilli versiyasının I və II cildlərini təsdiq edib, həmin İzahların rusdilli versiyasının III-V cildlərinin hazırlanması üzrə işin davam etdirilməsi ilə bağlı tapşırıqlar veriblər. Eyni zamanda MDB-nin xarici iqtisadi fəaliyyətinin vahid Əmtəə nomenklaturasına dəyişikliklər də təsdiq olunub.

MDB iştirakçısı olan dövlətlərin Gömrük xidməti rəhbərləri Şurasının növbəti iclası bu ilin IV rübündə Qırğızıstanda keçiriləcək.

# Hər ABŞ prezidenti bir müsəlman dövlətini məhv etsə...



**Hüseynbala SƏLİMOV**

**Düşünmürəm ki, "Böyük siyasət qəliz məsələdir" - deməklə dəyərli oxucularımızın biliyini, heç olmasa, azacıq artırmış olaram. Bəlkə də onlar daha ciddi qənaətdədirlər: fikirləşirlər ki, nəinki böyük, hətta ən kiçik siyasət belə müşkül, bir az da iyrənc məsələdir.**

Ola bilsin, buna görədir ki, bizim dəyərli həmvətənlərimiz illərdir ki, siyasətlə maraqlanmırlar. Hərçənd, mən bunu da ifrat hesab edirəm və bir daha deyirəm ki, bir şey ki, mövcuddur və bizim həyatımıza həlledici təsir göstərir, özümüzü onu görməməzliyə vurmaqla heç şey qazanmırıq, əksinə, siyasət adamlarının işini bir az da asanlaşdırırıq ki, onlar bizi daha çox əzsinlər, daha çox istismar etsinlər. Bu, siyasətin böyüyünə də aiddir, elə kiçiyinə də...

Ona görə də keçirəm mətləbə. Bəli, kiçik və despotik ölkə olan Qətər qalıb ərəb dünyasının, ABŞ-ın və Rusiyanın arasında. Yox, bu, növbəti "demokratiya savaşı" deyildir. Ona görə ki, Qətərə qarşı cihadın önündə despotik monarxiya olan Səudiyyə Ərəbistanıdır.

Ona qalsa, əslində cəmi ərəb dünyasında bircə dənə belə olsun, demokratik ölkə yoxdur. Hətta Misiri də demokratik ölkə adlandırmaq olduqca çətindir və demək olar, mümkün deyildir, ona görə ki, demokratik ölkələrdə prezidentlər on illərlə hakimiyyətdə olmurlar.

Misirə, olsa-olsa, dünyəvi demək olar, hərçənd, bu qiymətimizin də müəyyən mübahisələrə səbəb olacağını düşünüb əvvəli fikrə qayıdırıq: Qətər də bütün digər ərəb ölkələri kimi despotik monarxiyadır və elə bu səbəbdən də bir daha deyirik ki, bu savaş "demokratiya savaşı" deyildir.

Üstəlik, "demokratiya savaşı" da çox qəliz məsələdir. Kiçik Buşun vaxtında İraq bir ölkə kimi iflic edildi. Obamanın vaxtında isə Liviya və Suriya bu aqibəti yaşadı. İndi məlum olur ki, Trampın da vaxtında növbə Qətərə çatıb!..

Bilirsiniz, bu sıraya baxanda adamın ağlına gələn ilk şey nə olur? Düşünürsən, hər ABŞ prezidenti bir müsəlman ölkəsinin axırına çıxarsa, bu minvalla bir neçə on ildən sonra bircə müsəlman ölkəsi belə qalmaz!..

Bu məsələnin təkcə bir tərəfidir. Bir daha demokratiya məsələsinə gəldikdə isə, nə S.Hüseyn İraqının, nə M.Qəzzafi Liviyasının, nə də indi də qalmaqalda olan B.Əsəd Suriyasının xarabalıqları üzərində demokratiya bayrağı görünmür və yaxud da görünməyəcəkdir.

Bu azmış kimi, bir vaxt kiçik Buşdan İraqı işğal etməsinin səbəbini soruşanda bir söz tapmadı, çünki sonradan təsdiq olunmuşdu ki, bütün deyilənlərə rəğmən Səddamın heç bir nüvə silahı-filanı yox idi. Kiçik Buş da başqa səbəb uydurmadı, birbaşa dedi ki, Səddam mənim atamı təhqir etmişdi. Halbuki deyə bilərdi ki, Səddam İraqda despotik rejim qurmuşdu, hamını cana yığmışdı! Amma kiçik Buş bunları demədi. Biz də "oğulun atasının qisasını alması" versiyası ilə barışmalı olduq...

Elə Obama da başqa izahatlarla özünü yormadı. O da "etiraf" etdi ki, Liviya və Suriya məsələsi, ümumiyyətlə, "ərəb baharları" ssenariləri də axıra qədər düşünülməmişdi...

Bir sözlə, ABŞ siyasətçiləri heç bir halda özlərini təqsirli bilmədilər. İndi də qəribə vəziyyət yaranıb. Bir tərəfdən ABŞ-ın Qətərdə on minə qədər əsgərinin olduğu bildirilir, o biri tərəfdən də D.Tramp yorulmadan Qətəri terrora dəstək verməkdə suçlayır, hətta daha ehtiyatlı ifadələrdən istifadə edən dövlət katibinin leksikasına da diqqət yetirmir.

Bilirsiniz, böyük bir oyuna bənzəyir bu. İllərlə Şərq dünyasında despotlar "yetişdirirlər". Bu despotlar da ağına-bozuna baxmadan özlərinə İsgəndər və ya Napoleon deyir, ölkələrinin yaltaqlarının səhər-axşam onlara söylədiyi nağıllara inanaraq həqiqətən də düşünürlər ki, elə doğrudan-doğruya böyük, nəhəng siyasət adamlarıdırlar.

Beləcə, təriflərdən ağıllarını itirir, quduzlaşmağa və xalqı daha həvəslə talan etməyə başlayırlar. Xarici banklar da onların sərvətini hara və necə yerləşdirməyi bilmir.

Amma bir gün məlum olur ki, heç sən demə, bunlar çox böyük cinayətkarlar imiş və "demokratik dünya" daha buna dözmək istəmir və diktatoru cəzalandıracaq. Cəzalandırırlar. Amma necə? Ölkə xarabalığa çevrilir, idarəolunmaz hala gəlir. Diktatorun da pulları xarici banklarda itib-batır, hərçənd ki, əvvəlcə onların xalqa qaytarılacağı vəd olunur. Sonra hər şey "yaddan çıxır". Vədlər də, pullar da...

İndi deyilənə görə, Qətər əmirinin də pulu çoxdur. Nə demək olar? Allah axırını salamat etsin...

YENİ MÜSAVAT
N 128 (6742) 15 iyun 2017

**İyunun 13-də "Azərsun Holdinq" 20-yə yaxın jurnalistin iştirakı ilə Xaçmazda yerləşən "Qafqaz" Konserv Zavoduna media tur təşkil edib. "Yeni Müsavat"ın əməkdaşının da qatıldığı turun əsas məqsədi zavodun fəaliyyəti və istehsal prosesi ilə jurnalistləri əyani tanış etmək və ictimaiyyəti burada istehsal olunan qidalarla bağlı daha ətraflı məlumatlandırmaq olub.**

# "Qafqaz" Konserv Zavodunda bir gün - istehsal prosesi jurnalistlərin gözündə

## Müəssisə rəsmisi: "25 ildir ki, heç bir məhsulumuzda ərzaq təhlükəsizliyi və gigiyena baxımından problem yaşanmayıb..."

Öncə qeyd edək ki, iyunun 9-da Dövlət Baytarlıq Nəzarəti Xidmətinin Xaçmaz Rayon Baytarlıq İdarəsinin və Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin apardığı əməliyyat nəticəsində Xaçmaz rayonunda Məmmədyarov Eynulla Balaşərif oğluna məxsus avtomobilin yük yerindən qeyri-qanuni, antisanitar şəraitdə, üst-üstə yığılmış vəziyyətdə daşınan, mənşəyinə və sağlamlığına dair heç bir sənədi olmayan, şaqqalara bölünmüş 500 kiloqram çəkisində heyvan əti, 2 ədəd kəsilmiş malın baş-ayağı və daxili orqanları aşkar olunub. Ətin sahibi onları "Azərsun Holdinq"ə məxsus "Qafqaz" Konserv Zavoduna apardığını demişdi.

Lakin zavodda olduğumuz zaman öyrəndik ki, ümumiyyətlə, buraya yerli istehsalçının ət gətirməsi mümkün deyil. Çünki zavod yerli istehsalçılardan ət qəbulunu həyata keçirmir. Zavodda emal olunan halal sertifikatlı ət Ukraynadan alınır.









**Zavoda çatdıqdan sonra ilk olaraq "Azərsun Holdinq"in İctimaiyyətlə əlaqələr və biznesin inkişafına dəstək departamentinin müdiri Afiq Səfərov jurnalistlərə ümumi məlumatlar verdi. A. Səfərov bildirdi ki, bu kimi səfərlər MMC-nin tabeliyində fəaliyyət göstərən istehsal müəssisələrinə mütəmadi təşkil olunur:** ""Azərsun Holdinq"in bütün müəssisələrində istehsalat prinsipi konkret sistem üzərində çalışır. Artıq 25 ildir Azərbaycanda fəaliyyətdəyik və müəssisələrimizdə müxtəlif çeşiddə və ən həssas keyfiyyət və gigiyena qaydalarına riayət olunmaqla ərzaq, qida məhsulları istehsal olunur. Hazırlanan məhsullar içərisində ən təhlükəlisi olan konserv məhsullarıdır ki, onların hazırlanmasında gigiyena qaydalarına son dərəcə ciddi riayət edilir. "Azərsun Holdinq"in fəaliyyət göstərdiyi 25 il ərzində heç bir məhsulda ərzaq təhlükəsizliyi və gigiyena baxımından problem yaşanmayıb. Məhsullarımızın yüksək keyfiyyətlə istehsal olunmasına görə idarəetmə sisteminə borcluyuq. Bu sistem ondan ibarətdir ki, burada prosesə nəzarət və keyfiyyətə nəzarət direktorluğunun nümayəndələri zavod rəhbərliyinə tabe deyillər. Onlar birbaşa mərkəzi direktorluğa tabedirlər. Məcazi mənada desək, onların çörəyi istehsalatın səhvlərindən çıxır. Bu şəxslər nə qədər qüsur tutarlarsa, bir o qədər gəlirləri artar. Sırf bu cür idarəetmə nəticədə maraqların toqquşması, keyfiyyət amilini meydana çıxarır. Bizim üçün məhsulun keyfiyyəti bir nömrəli prioritetdir. Prosesə nəzarət və keyfiyyətə nəzarət direktorluğunun anbara daxil olmasına icazə verdiyi məhsulda sonradan karantin dövründə problem çıxarsa, bu dəfə onlar məsuliyyət daşıyırlar. Bax bu cür, dəfələrlə yoxlama sistemi nəticəsində keyfiyyət amili tam şəkildə əhatə oluna bilir".

**A.Səfərov son zamanlar zavodun adının neqativ fonda hallanması ilə bağlı da məsələlərə toxundu:**

"Məlumat üçün bildirək ki, "Qafqaz" Konserv Zavodu istehsal etdiyi ət konservlərinin heç biri üçün hazırda yerli istehsalçılardan ət qəbul etmir. Biz xaricdən və Biləsuvarda yerləşən fermalarımızdan ətləri qəbul edirik. Azərbaycan daxilində hələ ki müvafiq istehsalçılar olmadığı üçün daxildən ət qəbul etmirik. Ancaq meyvə-tərəvəzə bu, şamil olunmur. Onu da qeyd edim ki, meyvələrin də alınmasında xüsusi şərtlər var. Hər kəs öz məhsulunu bu zavoda verə bilməz. Burada keyfiyyətə nəzarət direktorluğunun razılığı olmadan məhsul emala yönləndirilə bilməz. Emalda da, yuxarıda qeyd etdiyim kimi, məhsul tam şəkildə yoxlanılır. "Qafqaz" Konserv Zavodu əvvəllər yerli əhali ilə əməkdaşlıq edib. Hətta elə olub ki, müvafiq qurumların möhürü üzərində olan ət məhsulları zavoda təklif olunsa da, bizim laboratoriyalarda yoxlamadan sonra bu məhsul qəbul edilməyib".

**Səfərov bildirdi ki, öz süfrələrində yemədikləri məhsulu istehlakçıya təklif etmirlər:** "Zavod daxildən ona görə ət qəbul etmir ki, hər ay daxili bazardan 50 ton ət qəbul olunarsa, ölkədə ətin qiyməti 20-25 manata qalxar. Məhz buna görə yalnız xarici bazarlardan və yalnız halal sertifikatlı məhsullar qəbul olunur. Konservlər xaricdən gətirilən və öz fermalarımızda bəslənən mal-qaranın ətindən hazırlanır. Biz öz süfrəmizdə yemədiyimiz məhsulu istehlakçımıza təklif etmirik. Elə bugünkü səfərin də məqsədi yarana biləcək zərrə qədər əsassız şübhəni tam aradan qaldırmaqdır".

**Zavodun direktoru Rüstəm Rüstəmov jurnalistlərə açıqlama verərək söylədi ki, zavod 2003-cü ildən fəaliyyət göstərir:** "Fəaliyyətə ilk olaraq mürəbbə, tomat pastası, kompot, mal əti konservləri ilə başladıq. Sonrakı illərdə isə bir çox məhsulların da istehsalını həyata keçirmişik. Zavodumuz ilk fəaliyyətə başladığı ildən "İSO 9001", sonrakı illərdə isə "İSO 22000" sertifikatına layiq görülüb. Bunlar bütün istehsalın idarə olunması və məhsulun keyfiyyətinə nəzarətə, ümumilikdə zavodun idarə edilməsinə aiddir. Zavodumuzda tanınmış mütəxəssislər çalışır. Ölkənin qabaqcıl markaları ilk olaraq bu zavoddan çıxıb. Konserv sahəsində sovet dönəmindən sonra liderlik edən ilk zavod buradır".

Daha sonra isə istehsal prosesini izləmək üçün zavoda daxil olduq. Burada da bizi zavodun rəhbərliyi müşayiət etdi. Öyrəndik ki, konserv istehsalının aparıldığı yerə hər kəsi buraxmırlar. Mütəxəssislər bildirdilər ki, bu, gigiyena baxımından uyğun deyil. İstehsal prosesini izləmək üçün bizə xüsusi geyim verildi və əllərimizi müvafiq dezinfeksiya yerində təmizlədik. Yalnız bundan sonra içəri keçməyə icazə verildi. İçəridə zavodun əməkdaşları qızğın işlə məşğul idilər.

**Müəssisənin keyfiyyətə nəzarət şöbəsinin müdiri Anar Qədirov bildirdi ki, konserv məhsullarının istehsalı zamanı istifadə olunan ət zavoda dondurulmuş şəkildə xaricdən gəlir:** "Həmin ət burada soyuq depolarda saxlanılır və ən yüksək avadanlıqlarla təchiz olunan laboratoriyada yoxlanılır. İstehsal zamanı həmin depolardakı əti mərhələlərdən keçirərək qablaşdırıb mal əti konservinin istehsalını həyata keçiririk. Xammalın qəbulundan hazır məhsulun çıxışına qədər olan bütün mərhələdə keyfiyyətə nəzarət bölməsi tərəfindən yoxlamalar aparılır. Hansısa mərhələdə problem yaranarsa, istehsalı dayandırırıq. Əti depolara verən zaman xüsusi dedektor cihazlarından da yoxlamalar aparılır. Tərkibində yad maddə varsa, dərhal aşkar olunur. Sonra isə növbəti mərhələlər həyata keçirilir. Xammalın qəbulundan məhsulun çıxışına qədər bütün prosesdə keyfiyyətə nəzarət olunur. 4 otaqlı laboratoriyada həm fiziki, həm kimyəvi mikrobioloji analizlər aparılır. Zavoda daxil olan xammaldan nümunə götürülür və laboratoriyada analiz edilir. Yalnız bundan sonra həmin xammal istehsala buraxılır. Laboratoriya müasir cihazlarla tam təmin olunub. Tələb olunan analizlər üçün hansı cihaz lazımdırsa, bizim zavodda o cihaz var. Eyni zamanda istehsal yeri də, gördüyünüz kimi, xüsusi havatəmizləyici cihazlarla təchiz olunub".

Daha sonra isə laboratoriyalar, məhsulların saxlanma şəraiti ilə yaxından tanış olub, ətlərin mənfi 17 dərəcə temperaturda saxlanıldığı depolarda olduq. Sonda isə zavodun bu vaxta qədər aldığı beynəlxalq sertifikatlar jurnalistlərə göstərildi.

❑ **Əli RAİS**
❑ **Fotolar müəllifindir**









# Tarixçi alim erməni yalanlarını ifşa etdi - şok faktlar

## Professor Kərim Şükürov: "Ermənilər milli mənafe naminə istənilən vaxt rusları da sata bilər, digərlərini də"

**"Erməni müəlliflərinin iddiasına görə, Şərqi Ermənistan indiki Ermənistan Respublikasıdır və Qərbi Ermənistan isə Anadolunun 6 vilayətidir. Ancaq bunlar boş xəyal və saxta iddialardır. Cənubi Qafqazda isə ümumiyyətlə, tarixən erməni olmayıb".**

**AMEA Tarix İnstitutunun Azərbaycanın Tarixi Demoqrafiya şöbəsinin müdiri, tarix elmləri doktoru, professor Kərim Şükürov** bu fikirləri iyunun 14-də Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi və Cənubi Qafqazda demoqrafik vəziyyətin dəyişməsi mövzusunda jurnalistlərə məruzə edərkən bildirdi. "Yeni Müsavat"ın əməkdaşının da iştirak etdiyi tədbirdə çıxış edən tarixçi alim dedi ki, ermənilər Qafqazın yerli əhalisi deyil və bunun tarixi əsasları var. "Erməni xəstəliyi"nin mahiyyətindən bəhs edərkən o dedi ki, tarixdə baş verənlər bizə dərs olmalıdır: "Ermənilər bu qədər başımıza faciələr gətiriblər, amma yenə də bizim onlarla mübarizə sahəsində milli ideologiyamız mövcud deyil. Deyirik ki, 1828-29-cu illərdə ermənilər İrandan köçürüldü. Amma unuduruq ki, bu ərazilər də Azərbaycan torpaqları idi - ermənilər Cənubi Azərbaycandan köçürülüb. Bəs ermənilər Cənubi Azərbaycana haradan köçürülmüşdülər? Bu məsələlər gedib çıxır Şah Abbasa. 623-cü ildə Şah Abbasın köçürülmə siyasəti oldu. Söhbət 200-300 min nəfərin köçürülməsindən gedir. Bəs onda 200-300 min erməni hardan gəldi Cənubi Azərbaycan ərazilərinə? Ermənilər Aralıq dənizi sahili xalqıdır və Ermənistan adlı yer adına ilk dəfə Dəclə və Fərat sahillərində rast gəlinib. 4-cü əsrin ortalarında Sasanilərlə Bizans arasında müqavilə var, o müqavilə ilə Ermənistan bölüşdürülüb. Bu zaman Sasanilər ərazisində yaşayan ermənilər Bizans ərazisinə keçməyə başladı. Bundan sonra ermənilərdən "maşa" kimi istifadə olunmağa başladı. Azərbaycanın tarixi ərazilərinə ilk erməni köçü də o vaxtdan - 4-cü əsrdən başlayıb. Ona görə də biz ermənilərin köçürülməsi tarixini 1828-29-la bağlasaq, bu, tamamilə yanlış olur".



Kərim Şükürov

Tarixçi alim dedi ki, ermənilər miqrasiyaya meylli toplumdur. O, dünyadakı ermənilərin sayı barədə 7-15 (?-E.P.) milyon arası rəqəmlərin göstərildiyini bildirdi. Qeyd etdi ki, statistikaya görə, ermənilər 80-dən çox ölkədə yaşayır. O cümlədən Rusiyada 2 mln.700 min, ABŞ-da 1 mln. 700 min, Fransada 550 min, Gürcüstanda 460 mindən çox erməni yaşayır.

**"Biz erməni məsələsinə bəsit yanaşmamalıyıq" deyən K.Şükürov əlavə etdi ki, Qarabağın dağlıq hissəsində yaşayan ermənilər albanlar olub:** "İslam yayılanda ərəblər dağlıq hissəyə çıxmağa meylli olmadılar, onlar xristian olaraq qaldı və albanların erməniləşməsi prosesi getdi. Bunlara dönmüş ermənilər deyilir. Qarabağ ermənilər ilə Ermənistan erməniləri genetik baxımdan bir-birindən fərqlənirlər. Azərbaycanda olan ermənilərə baxdıqda, burada iki kök görürük: 1.Dağlıq Qarabağdakı xristian albanlar qriqoryanlaşır, daha sonra isə tədricən erməniləşir. 2.Köç prosesində Azərbaycanda ermənilər peyda olur. Bizim tariximizin ən böyük faciəsi bu oldu ki, Pyotrun hücumu zamanı həm Osmanlı zəiflədi, həm də Azərbaycanda ermənilərə ciddi müqavimət göstərən qüvvələr olmadı. Pyotr ciddi müqavimətlə üzləşmədi deyə, Xəzərdən keçib Bakını tutdu. Bundan sonra ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi başladı. Ancaq Pyotr 1725-ci ildə öldü. O, sağ qalsaydı, ermənilərin köçürülməsi siyasəti daha geniş şəkildə həyata keçiriləcəkdi. Lakin İkinci Yekaterina bu siyasəti davam etdirdi, hətta o, bölgədə erməni dövləti yaratmaq istəyirdi. Tarixi faktlar sübut edir ki, ermənilər milli mənafe naminə istənilən vaxt rusları da sata bilər, digərlərini də".

**K.Şükürov bildirdi ki, 300 mindən çox erməni Cənubi Qafqaza və Azərbaycana köçürülüb:** "Azərbaycanda mart qırğınını törədənlərin də əksəriyyəti məhz həmin müharibə görmüş ermənilər idi, onlar azərbaycanlı əhaliyə qarşı daha çox qəddarlıq edirdilər".

**Alim qeyd etdi ki, ermənilər törətdikləri qırğınları ört-basdır etməkdən ötrü Azərbaycan əhalisini "suçlu" çıxarmağa çalışırlar.** "Bakını "üç erməni qırğını şəhəri" adlandırırlar. Amma bu gün də işğal altındakı Qarabağdakı ermənilər istisna olmaqla, Azərbaycanda 30 min erməni yaşayır" - tarixçi alim qeyd etdi. Bildirdi ki, Cənubi Qafqazda Azərbaycanın hazırkı ərazisi 86,6 min kvadrat kilometr, Gürcüstanın ərazisi 69.7 min kvadrat kilometr, Ermənistanın ərazisi isə 29 743 kvadrat kilometrdir. Bu qondarma dövlət isə 1918-ci ildə 9 min kvadrat kilometrlik İrəvan şəhərinin və ətraf ərazilərin ermənilərə verilməsi ilə yaradılıb, daha sonra ermənilər öz havadarlarının dəstəyi ilə ərazilərimizin qəsbini davam etdirib ərazilərini üç dəfə böyüdüblər.

"Bizdə belə bir rəy var ki, 4,4 min kv.km-lik ərazisi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasını ermənilər də razılıqla qarşılayıb. Onlar hesab edirdilər ki, Dağlıq Qarabağ Ermənistana birləşdirilməlidir" - K.Şükürov Azərbaycan ərazilərində oyuncaq qurumun yaradılması ilə basdırılan "mina"dan danışarkən qeyd etdi.

**Tarixçi alim Gürcüstan erməniləri ilə bağlı da ilginc məlumatı səsləndirdi:** "Gürcü tarixçiləri də qeyd edirlər ki, ermənilərin köçürüldüyü yerlər azərbaycanlı əhalinin sıx yaşadığı bölgələr, Borçalı və digər ərazilər olub. Deməli, Gürcüstanda da ermənilərin köçürülməsi Azərbaycanın tarixi ərazilərində baş verib".

Qeyd edək ki, iyunun 13-dən "Qarabağ Araşdırmalar Mərkəzi" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası layihəsi çərçivəsində Azərbaycanın KİV-nin nümayəndələri üçün "Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkarlıq siyasətinin mərhələləri" haqqında qısamüddətli elmi maarifləndirmə və təbliğat kursları başlayıb. Silsilə tədbirlərdə alimlərimizin səsləndirdiyi tarixi faktlar böyük güclərin əlində əsrlər boyu alətə çevrilən ermənilərin Azərbaycan xalqına qarşı necə dəhşətli cinayətlər törətdiklərini bir daha sübuta yetirir.

# Qarabağın Azərbaycanlı İcmasının rəhbərliyindən Limonova kəskin etiraz

## Bayram Səfərov: "O, ermənilərə satılmış birisidir"

**"Bunlar hamısı ermənin hiyləsidir. Rusun da satılanları bu hiylələrdə iştirak edirlər. Bu, Rusiya vətəndaşı olan Limonov və onun kimilərinin öz ölkələrinin rəhbərliyinə hörmətsizliyidir. Rusiya dövləti Azərbaycanın ərazi bütövlüyünü tanıyır, bu torpaqlar isə Azərbaycanındır".**

**Şuşa Rayon İcra Hakimiyyətinin başçısı, Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin sədri Bayram Səfərov** "Yeni Müsavat"a Rusiyanın separatçı yazıçısı Eduard Limonovun qeyri-qanuni şəkildə Azərbaycanın işğal altındakı ərazilərinə gəlişi və ölkəmizi təhdid etməsinə münasibət bildirərkən belə dedi. İcma rəhbəri bildirdi ki, Azərbaycanın öz torpaqlarını istənilən yolla azad edəcəyini hər kəs yaxşı anlayır: "Ümummilli liderimiz də, möhtərəm prezidentimiz də bu torpağın bir qarışını da düşmənə verməyəcəyini dəfələrlə bəyan edib. Xalqımız da torpaqların azadlığından ötrü canından keçməyə hər an hazırdır. Azərbaycan ordusu da keçən ilin aprelində bütün dünyaya göstərdi ki, ərazilərimizi azad etmək qüdrətindədir".



Bayram Səfərov

**E.Limonovun Rusiyanın Qarabağı öz nəzarəti altına alması haqda sərsəm çağırış etməsinə gəldikdə, B.Səfərov Rusiyanın Dağlıq Qarabağı öz tərkibinə birləşdirməklə bağlı planının olduğuna inanmır:** "Mən inanmıram ki, belə bir plan olsun. Bu, ermənilərin növbəti fitnə-fəsadı, şantajıdır. Mənə maraqlıdır, Limonov niyə saysız-hesabsız rusun məhvinə nail olmuş faşistlərə Ermənistanda qoyulan abidələrdən danışmır?"

**İcma rəhbəri rəhbərlik etdiyi qurumun rus yazıçının anti-Azərbaycan çağırışlarına reaksiya verməsinə ehtiyac görmür:** "Limonov kimdir ki, ona icma səviyyəsində rəsmi etiraz edək? Bu adam özü etiraf edir ki, türk düşmənidir, düşməndən ayrı nə gözləmək olar? O, ermənilərə satılmış birisidir. Limonov rus milləti üçün nə isə etsəydi, başa düşərdim. Amma indi heç mən rəva da bilmirəm ki, belə bir axmaq, tərbiyəsiz birisinə cavab verək".

**Politoloq Arzu Nağıyev isə əməkdaşımıza dedi ki, E.Limonovun Qarabağa gəlişi onun Rusiyanın mövqeyini əks etdirdiyi anlamını vermir:** "Təbii ki, Limonovun özünün siyasi baxışları qatı millətçi kimi xarakterizə edilir. Yəni elə burada da maraq doğur ki, bu birdən-birə haradan belə ermənipərəst oldu? Maraqlısı da odur ki, hətta qanunsuz gəlişində belə əsasən Rusiyanın mövqeyini nümayiş etdirməyə çalışır. Guya ki, gəlişinin məqsədini antitürk mövqeyi tutması ilə izah edir və Rusiya-Türkiyə münasibətlərinin normallaşmasını, müsbət şəkildə tənzimlənməsini istəmir. Məhz bu səpkili yazılarından sonra guya ermənilər onu Ermənistana dəvət ediblər. Yəni Limonovun təzadlı tərcümeyi-halına baxanda da hiss edilir ki, bu adam qızışdırıcı mövqedə olan, kimin daha çox maddi vəsait ödəməsindən asılı olaraq çıxış etməyə hazır olan psevdosiyasətçidir. Bu, hətta onun verdiyi müsahibələrdə də öz əksini tapıb".

**A.Nağıyev düşünmür ki, Dağlıq Qarabağda Rusiya Limonov kimilərinin vasitəsilə Abxaziya və ya Cənubi Osetiya variantına gedə bilər:** "Bu proseslər sadəcə olaraq, ermənilərin özləri tərəfindən belə edilir ki, Rusiyanın onlarla bir yerdə olmasını göstərsinlər. Lapşin məsələsi yəqin ki, Limonova və onu kimilərinə dərs olmayıb. Azərbaycan Xarici İşlər Nazirliyinin mövqeyi dəstəklənməlidir ki, Limonovun Dağlıq Qarabağa səfəri qanunsuzdur və o artıq "qara siyahı"ya salınıb. Təbii ki, Azərbaycan sərhədinin qanunsuz keçilməsi ilə bağlı artıq onun üzərində cinayət faktı var. Bundan başqa, Azərbaycan əraziləri ilə bağlı verdiyi bəyanatlarda da bir sıra qanunazidd məqamlar mövcuddur. Bununla bağlı Azərbaycan tərəfinin müvafiq qərarlar qəbul edəcəyi gözləniləndir".

Azərbaycan XİN isə artıq E.Limonovun adını "arzuolunmaz şəxslər"in siyahısına əlavə edib. Gözləniləndir ki, müvafiq qurumlarımız faşist mövqeli yazıçının blogger Lapşin kimi qolubağlı Bakıya gətirilməsi üçün zəruri addımları atacaqlar. Hər halda, Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyırsa, məntiqlə işğal altındakı ərazilərə gedən, üstəlik, separatçılara açıq dəstək verən vətəndaşları haqqında da ölçü götürməlidir. Təbii ki, əgər beynəlxalq prinsiplərə sayğı və Azərbaycanla normal qonşuluq münasibəti varsa...

YENİ MÜSAVAT
N 128 (6742) 15 iyun 2017

**Fars körfəzi ölkələri Qətər və Səudiyyə Ərəbistanı arasında böhran Yaxın Şərqin əsas hadisəsinə çevrilib. Xatırladaq ki, Qətəri terrorizmi dəstəkləməkdə ittiham edərək əlaqələri kəsən Səudiyyə Ərəbistanı, BƏƏ, Bəhreyn və Misirin başlatdığı blokada və embarqo siyasətini dəstəkləyən ölkələr olsa da, ümumilikdə Qətər hökuməti geri çəkilmədi. Əksinə, bir neçə ərəb ölkəsi, o cümlədən Mərakeş, Türkiyə kimi ölkələr Qətərə açıq dəstəyini ifadə edib.**

# "Qətər böhranı tez bir zamanda səngiməyəcək"

## Aida Qəmbər: "Regionda vəziyyət xeyli mürəkkəbləşib; periodik olaraq ölkələrdən biri radikal bir addım atır və gərginlik alovlanır"

*Pakistanın baş naziri Nəvaz Şərif isə ötən gün Səudiyyə Ərəbistanına gələrək kral Salmanla görüşüb. Ciddə şəhərindəki Salam sarayında görüşən kral və baş nazirin əsas mövzusu Qətər böhranı olub. N.Şərif kralla görüşündə Qətər böhranının mərhələli şəkildə həll olunmasını təklif edib. Görüşdə Pakistanın baş qərargah rəisi də iştirak edib.*

*Qətər böhranını yatırmaq üçün fəal diplomatiya aparan daha bir ölkə isə Mərakeş olub. Ötən gün Mərakeş XİN rəhbəri Əbu-Dabiyə gələrək BƏƏ vəliəhd şahzadə Zaid əl-Nahyanla görüşüb. Ancaq hələlik bu görüşlərdən ciddi bir nəticə yoxdur. Bütövlükdə Yaxın Şərq regionunun əsas probleminə çevrilən Qətər böhranı bölgənin gələcək taleyinə hansı təsiri göstərəcək? Mövzunun aktuallığını nəzərə alaraq bir neçə sualla şərqşünas-alim, BDU-nun dosenti Aida Qəmbərlə söhbət etdik.*

***- Aida xanım, Qətər ətrafındakı böhranla bağlı bir sıra versiyalar var. Təbii ki, rəsmi ittiham bəllidir. Qətəri terrorizmi dəstəkləməkdə ittiham edirlər. Amma hiss olunur ki, açıqlanmayan səbəblər də var. Körfəz ölkələri Qətərdən nə istəyirlər?***

- Əslində hələ ilk günlərdən bu böhranın əsas səbəbləri ilə bağlı şübhələrim vardı. İntuisiyam məni aldatmadı. Məsələ ondadır ki, bu böhranla bağlı məlumat az-az ötürülür, üzdə hərəkətlilik var, amma daxildən, təfərrüatları bilən mənbələr az məlumat verirlər. İlk gündən bu mənə süni bir problem kimi gəldi. Ancaq süni olduolmadı, regionda böyük bir təhlükə mənbəyi yaranıb. Problemlərin üzərinə biri də gəlib.

Qətərin şahzadələri azad etməsi üçün 1 milyard dollar verməsi və bu məbləğin çox hissəsinin terror təşkilatlarına verilməsi iddiası ittiham üçün yetərli əsas deyil. Dünya praktikasında girovlarla bağlı pulun hansı mənbəyə, kimin vasitəsilə çatacağı qeyri-şəffaf olub. Ona görə də bundan çıxış edib Qətəri ittiham etmək əsaslı deyil. Burda bir məsələ mənə qaranlıqdır.

O məsələ də ondan ibarətdir ki, Qətər, o cümlədən BƏƏ, Səudiyyə Ərəbistanı, Bəhreyn bunlar vahid təşkilatda - Körfəz Əməkdaşlıq Təşkilatında birləşiblər. İndiki mərhələdə orda olan dövlətlərin bir-birinə dəstək deyil, düşmənçilik etməsi hara aparacaq? Bu ölkələr Qətərə embarqo tətbiq ediblər, ancaq bununla bağlı Körfəz Əməkdaşlıq Təşkilatının bir bəyanatı olmayıb. Küveyt yalnız bir qədər mötədil münasibət sərgiləyir. O birilər isə radikaldır.

***- İttihamlardan biri də onunla bağlıdır ki, Qətər terroru dəstəkləyir. Əl-Cəziranı terroru dəstəkləməkdə ittiham edirlər. Körfəz ölkələri bu kanalın xəttini dəyişməyi tələb edirlər. Qətəri terrorda ittiham edirlərsə, o zaman əl-Cəziranı nədə ittiham edirlər? Bu tələb nədən irəli gəlir? Bu sual da açıq qalıb.***

- Ancaq eyni zamanda məlum oldu ki, Qətər böhranı ərəb ölkələrini böldü. Bir sıra dövlətlər, o cümlədən Mərakeş kimi ərəb dövlətləri açıq şəkildə Qətəri müdafiə etdilər. Küveyt və Oman isə qarışmadı. Təkcə o da deyil. Hətta blokada ölkələrində belə birmənalı mövqe yoxdur. Bu da iddia olunur ki, Qətər Yəməndə husilərə qarşı koalisiyadan ordusunu geri çəkib. Eyni zamanda Qətər hökuməti öz vətəndaşlarına işlədikləri ölkədə qalmağı tövsiyə edib.

Ancaq maraqlı detal ondan ibarətdir ki, Misir Qətər əleyhinə koalisiyaya qoşulsa da, Qətərlə bank əməliyyatlarını dayandırmayıb. Hətta Qətər valyutası da Misirdə işləyəcək. Misir XİN bəyan edib ki, körfəzdə məsələlər daha radikal hal alacaqsa, Misir ordusunu göndərə bilər.

Eyni zamanda Sudan, Tunis, Əlcəzair, Mərakeş digər ərəb ölkələrinə çağırış ediblər ki, məsələləri dinc şəraitdə həll eləsinlər. Bu onu göstərir ki, bu ölkələr və eləcə də Əməkdaşlıq Təşkilatı ölkələri Küveyt və Oman da vasitəçilik təklif ediblər.

***- Bəs ilkin təxminlər necədir, böhran yaxın zamanda aradan qalxa bilərmi?***

- Gedişat onu göstərir ki, regionda vəziyyət xeyli mürəkkəbləşib. Bu da onların sonrakı taleyinə təsir edəcək. Mənə görə bu münaqişə tez bir zamanda səngiməyəcək. Çünki periodik olaraq ölkələrdən biri radikal bir addım atır və gərginlik alovlanır.

***- Burda İranın da mövqeyi maraqlıdır. Çünki Qətərə ittihamlardan biri də İranla bağlıdır. Tehranın mövqeyindən nə hiss etmək olur?***

- İran da bəzi addımlar atıb. Onlardan biri də humanitar yardım göndərməsi, hətta məhdud diplomatik vasitəçilik təklif etməsidir. Tehran tamamilə kənarda qala bilməz. Çünki ittihamlardan biri də Qətərin İranla gizli əməkdaşlığı ilə bağlıdır.

Türkiyənin mövqeyi bəllidir. Türkiyədə Qətərdə müəyyən ordu kontingentinin yerləşdirilməsi ilə bağlı yekdil fikir yoxdur. Siyasi qrupların heç biri bu qərarı dəstəkləmir, gördüyüm qədəri ilə.

Digər bir ölkə Rusiyadır. Baxmayaraq ki, Rusiya körfəzdə baş verən proseslərə müdaxilə üçün açıq deyil. Ancaq Rusiya aktivdir, Qətər əmiri ilə telefonla danışıb. İyunun 10-da Qətərin xarici işlər naziri də Moskvaya gedib uzun sürən danışıqlar aparıb. Belə görünür ki, bu məsələdə hər dövlət öz maraqları çərçivəsində çıxış edir. Hər kəs maksimal şəkildə divident götürmək istəyir.

Qətər özü isə qapalı kanallarla fəal diplomatiya aparır. Böyük dövlətlərin yanaşmasını dəyişməyə çalışır. Digər tərəfdən, ilk gündə olduğu kimi sərtlik artıq yoxdur. İlk gündə bir sutka vaxt verilsə də, Qətər geri çəkilmədi və bu tələb faktiki olaraq havadan asılı qaldı.



***- Qətər böhranı regiondakı vəziyyətə necə təsir edəcək? Nəzərə alsaq ki, hazırda Yaxın Şərqdə ciddi münaqişələr gedir və Qətər, Səudiyyə Ərəbistanı bu münaqişələrdə iştirak edirlər, bu və ya digər şəkildə.***

- Əlbəttə, mənfi təsir edəcək hər iki tərəfə. Məsələn, ittihamlardan biri onunla bağlı idi ki, Qətər İranla gizli əməkdaşlıq edir, terror qruplarını dəstəkləyir. Dilə gətirilməsə də, burda əsasən Suriya münaqişəsi nəzərdə tutulurdu. Tutaq ki, bu iddialar doğrudur, amma faktiki olaraq Suriyada münaqişənin həllinə təsiri olmadı. Hətta Qətər və Səudiyyə Ərəbistanı, bildiyimiz kimi, hazırda Suriya münaqişəsində kənarda qaldı. Mən düşünmürəm ki, İran Suriyada hansısa məsələdə geri durdu.

***- O zaman yenə də başdakı sualı fərqli şəkildə qoyaq. Bu embarqo və gərginliyin əsas səbəbi nə idi?***

- Bu tələblər Qətərin siyasətinin redaktə edilməsi idi. Burada Qətərin siyasətini redaktə etməsi tələbinin açması o idi ki, Doha müstəqil siyasət yürütməsin, ərəblərlə bərabər yola davam eləsin. Burada rəqabət mövzusu var. İdeoloji xətt bəhanədir. Müsəlman dünyasının bir qisminin xoşuna gələ bilər, amma ortada bütövlükdə ideoloji məsələ yoxdur.

***- Bu hadisələrin Yaxın Şərqə hansı təsirləri olacaq?***

- Bir çox təsirlərinin olacağını düşünürəm. Məsələn, kürdlərin, yəni Şimali İraq kürd administrasiyasının sentyabrın 25-də referendum təyin etməsi. Kürdlərə referendum üçün münasib vaxt lazım idi. O vaxt da seçildi. Bu dövlətlər, hansı ki, Yaxın Şərqdə aparıcı güclər kimi iştirak edirdi, onlardan heç biri bu məsələyə ciddi reaksiya vermədi. Halbuki bu referendum olsa - bəllidir ki, nəticə müsbət olacaq - bu zaman regionda nələr olacağı bəllidir. 3 ay qaldı sentyabra. Bu müddətdə aparıcı dövlətlərin qərarverici orqanları istirahətdə olacaqlar. Yəni kürdlər yaranmış vəziyyətdən istifadə edib uyğun vaxt seçdilər.

Həm də Kərkükün taleyi də referenduma çıxarılıb. 2005-ci ildə Kərkükün taleyi İraqın yeni konstitusiyası qəbul olunarkən ciddi müzakirələrə səbəb oldu. Böyük dövlətlərin qarışması ilə Kərkük məsələsi kənara qoyuldu.

İndiki referendumda nə olacaq? Türkmənlərin taleyi necə düşünülür? Türkiyənin yanaşması necə olacaq? Bütün bu məsələlər açıq qalıb. Türkmənlərin uzun müddət ələmə çalışması var. Türkiyənin əsas kozırlarından biri türkmənlər idi. İndi onlar itirilir. Böyük siyasətdə nəyisə itirirsənsə, başqa bir tərəfdən qazanmalısan. Amma bu oyun qazancsızdır.

***- Suriyada müxalifləri dəstəkləyən əsas ölkələrdən biri Qətər və Səudiyyə Ərəbistanı idi. Bu gərginlik orda hansı nəticəni doğuracaq? Xüsusən də şimal ərazilərdə, kürd bölgələrində.***

- Suriyada dəyişən bir şey yoxdur. Onsuz da əsas oyunçular hələ də mövqelərini qoruyub saxlayırlar. Rusiya Suriyada öz xəttini davam etdirir. 4 mayda imzalanan Suriyada zonaların yaranması ilə bağlı anlaşmanın icrasına sadiq olacaqlar. 3-lü ittifaq qurulub, Türkiyə, İran və Rusiyadan ibarət olmaqla.

İndiki məqamda belə görünür ki, ABŞ Suriyada kürdlərlə ittifaqdadır və onların əli ilə regionu nəzarətə götürməyə çalışır.

Mənim fikrimcə, regionlara bölünməsi Suriyanın parçalanması və gələcəkdə bölünməsi ilə nəticələnə bilər. ABŞ-da daxili siyasi vəziyyət, Trampın siyasəti ilə bağlı tərəddüdlər Amerikanın addımlarına təsir edir, prioritet olmasa da.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 128 (6742) 15 iyun 2017

# Terrorçulara dəstək verən ölkələr hansılardır...

## Elxan Şahinoğlu: "Nə vaxta qədər ki, beynəlxalq aləmdə "sənin terrorçun, mənim terrorçum" prinsipi işləyəcək..."

**Zaman-zaman dünya üçün təhlükəli olan terror təşkilatları və terrorçulara bəzi ölkələrin dəstək verdikləri, hətta onları yaratdıqları barədə iddialar səslənir. Hər hansı bir terror təşkilatı peyda olan kimi gözlər bəzi ölkələrin üzərinə dikilir.**

Belə iddialar səslənir ki, dünyanın öndə gedən dövlətləri öz məqsədlərini həyata keçirmək üçün terror qrupları yaradır, onların siyasətinə əks gedən ölkələri onların əli ilə "cəzalandırır". Məsələn, vaxtilə "əl-Qaidə"ni Amerikanın yaratdığı barədə çoxsaylı fikirlər var idi, indinin özündə də bu cür iddialar səslənməkdədir. Hazırda dünya üçün bir nömrəli problemə çevrilən İŞİD-in Qərb ölkələri tərəfindən yaradılması haqqında fikirlərə də tez-tez rast gəlməkdəyik. Bu terror təşkilatına qarşı aparılan qətiyyətsiz mübarizənin də məhz bu səbəbdən qaynaqlandığı vurğulanır. Qardaş Türkiyə üçün başağrısına çevrilən PKK-nin isə mövcudluğunda Rusiya kimi dövlətlərin adı çəkilir. Terrora dəstək verən bəzi dövlətlərə zaman-zaman edilən təzyiqlərin də şahidi olmuşuq. Son olaraq, Qətər bu cür təzyiqlərə məruz qaldı və hazırda bu ölkənin blokadası davam edir.



**Politoloq Elxan Şahinoğlu terrorçulara verilən dəstəyi gizlətməyin mümkünsüz olduğunu bildirdi:** "Müxtəlif zaman kəsiklərində terrorçu təşkilatları müxtəlif dövlətlər dəstəkləyiblər. Məsələn, bu sırada müxtəlif illərdə Şimali Koreya, Pakistan, İran və bir qrup Afrika ölkələrinin adları çəkilib. İndi isə Qətər hədəfə gəlib. Terrorçu təşkilatlara dəstəyi gizlətmək mümkün olmur, bu nə zamansa faş olur. Terrorçulara gizli dəstəyə görə həmin dövlətlər əziyyət çəkirlər, onlara qarşı sanksiyalar həyata keçirilir ki, bu həmin dövlətləri zəiflədir. Ancaq iddialara qalsa, Amerika və Avropa ölkələrinin bir qismini də terrorçulara dəstək verən dövlətlər siyahısına salmaq olar. Məsələn, Amerikanın İrana qarşı əsas iddiası odur ki, Tehran "Hizbullah" və "Həməs" təşkilatına maliyyə və silah dəstəyi verir. Bu iki qruplaşma İsraili hədəf alıb. Ona görə də Vaşinqton müttəfiqi İsrailin düşmənlərini özünün düşmənləri sayır və "Hizbullah"la "Həməs"i terrorçu təşkilat hesab edir. Ancaq məsələ burasındadır ki, Amerikanın terrorçu saydığı bu iki təşkilatı Türkiyə və Rusiya terrorçu saymır. Rusiya Suriya ərazisində terrorçu İŞİD-ə qarşı mübarizədə "Hizbullah"ın imkanlarından istifadə edir, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan isə "Həməs" liderlərini zaman-zaman Ankarada qəbul edərək onlarla geniş fikir mübadiləsi aparır. Doğrusu, bu hal mənə Fələstin Azadlıq Təşkilatının durumunu xatırladır. 20-30 il əvvəl Amerika və bir sıra Avropa dövləti Fələstin Azadlıq Təşkilatını və onun əfsanəvi lideri Yasir Ərəfatı terrorçu adlandırırdılar. Halbuki Ərəfat xalqının və dövlətinin azadlığı uğrunda mübarizə aparır, Fələstinin müstəqilliyinə çalışırdı. Bəli, bu zaman İsrail rəsmiləri, diplomatları və hərbçiləri hədəf halına gəlirdilər. Ancaq İsrailin özü BMT qətnamələrinə rəğmən, Fələstinin müstəqilliyinə razılaşmırdı. İllər keçdikdən sonra Qərbin Ərəfata münasibəti dəyişdi və böyük saraylarda onu qəbul etməyə başladılar. Nəticədə "terrorçu" adlandırılan Ərəfat vətəninə qayıtdı və Fələstinin ilkin mərhələdə muxtariyyətinə nail oldu".

**Politoloq terrorçular üzərində qələbə çalmağın çətinliyinə də toxundu:** ""Terrorçu kimdir" sualına cavabda ikili standartlar mövcuddur. Məsələn, Amerika və Avropa Birliyinin aparıcı dövlətləri bir tərəfdən PKK-nı terrorçu təşkilat sayırlar, digər tərəfdən terrorçu adlandırdıqları təşkilata dəstək verirlər. PKK-çılar Almaniyada özlərini çox rahat hiss edirlər. Türkiyə Almaniya hökumətinə PKK-çılarla bağlı 4 minə yaxın raport verib, birinə də baxılmayıb. Terrorçular Almaniyada, Hollandiyada, Belçikada və digər dövlətlərdə yığdıqları xəracı PKK-nın Kandil dağındakı bazasına göndərir, onlar da həmin pulla silah və partlayıcı qurğular alaraq Türkiyədə qətliamlar və partlayışlar törədirlər. Başqa bir fakt. Bir qrup terrorçu İstanbulda Sabançı mərkəzinə hücum edərək, şirkətin rəhbərlərindən birini qətlə yetirmişdilər. Bundan sonra qatillərdən biri Belçikaya qaçdı. Türkiyə Brüsseldən həmin terrorçunu təhvil verməyi tələb etdi. Bunun əvəzinə terrorçu üzərində məhkəmə keçirildi və bir az sonra həmin şəxs ev həbsindən yoxa çıxdı. Açıq-aşkar Belçikanın hakim dairələri Türkiyənin ekstradisiya tələbini yerinə yetirməmək üçün terrorçu qatilin qaçmasına şərait yaratdılar. Və ya başqa fakt. İŞİD terrorçuları Parisdə dərgiyə hücum edərək bir neçə jurnalisti qətlə yetirdi. Buna cavab olaraq Fransa hakimiyyəti dünya liderlərini Parisdə etiraz nümayişinə dəvət etdi. Xeyli dövlət başçısı həmin etiraz nümayişinə qatıldı. Bundan bir neçə gün sonra PKK İstanbulda dəhşətli partlayış törətdi, onlarla vətəndaş qətlə yetirildi. Avropadan səs belə çıxmadı. Bunun özü də terrorçulara münasibətdə ikili standartlardan xəbər verir. Nə vaxta qədər ki, beynəlxalq aləmdə "sənin terrorçun, mənim terrorçum" prinsipi işləyəcək, terrorçular üzərində qələbə çalmaq çətin olacaq".

❑ **Cavanşir ABBASLI**

# Londondakı şiddətli yanğında terror izi

## İngiltərə paytaxtında 10 gün ərzində yaşanan iki faciə arasında bağlılıq varmı?

**İyunun 14-də İngiltərənin paytaxtı Londonun qərbində "Grenfell Tower" çoxmərtəbəli yaşayış binasında yanğın baş verib. Qısa müddətdə binanı bürüyən yanğın zamanı ölənlərin də olduğu bildirilib. Yanğının söndürülməsi üçün 200 nəfərdən artıq yanğınsöndürən səfərbər edilib.**



Yanğının başvermə səbəbi hələlik məlum deyil. Yanğının yaşayış binasının bütün tərəflərini və mərtəbələrini əhatə etdiyi bildirilib. Londonun yanğınsöndürmə briqadasının komissarı Deni Kotton deyib ki, 29 ildir yanğınsöndürən işləyir, ancaq həyatı boyu belə miqyasda yanğın görməyib. Yanğın bir neçə saat davam edib.

Qeyd edək ki, iyunun 4-də gecə saatlarında Londonda silsilə terror aktları törədilmişdi. Həmin qanlı terror aktları nəticəsində 7 nəfərin öldüyü, 30 nəfərin yaralandığı bildirilmişdi. Ekspertlər Londonun terroristlərin hədəfində olduğunu dəfələrlə vurğulayıblar. Bəs belə olduğu təqdirdə baş verən yanğın hadisəsinin də arxasından terrorçular çıxa bilərmi?

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, yanğının başvermə səbəbinin ciddi araşdırılmasına ehtiyac var:** "Böyük Britaniyada son zamanlar bir neçə ard-arda hadisələr baş verib. Həmin hadisələrdən 3-ü terror hadisəsi kimi qiymətləndirilib. Böyük Britaniya kəşfiyyatı dünyanın ən güclü kəşfiyyatlarından biridir və yüz illərdir ki, mövcuddur. Buna baxmayaraq, görürük ki, terrorçular bu ölkəni də vura bilirlər. Yanğınla bağlı araşdırma nəticəsində terror hadisəsi olmadığı sübuta yetirilsə belə, bunun özü də Böyük Britaniya üçün yaxşı hal deyil. Çünki bu cür qorunan şəhərdə belə bir yanğın baş verdi və insanların bir çoxunu xilas etmək mümkün olmadı. Əlbəttə ki, bundan sonra Böyük Britaniya təhlükəsizliyin artırılması barədə düşünməlidir. Təsadüfi deyil ki, ölkənin baş naziri Fransaya səfər edib və prezident Emmanuel Makronla belə qərara gəliblər ki, internetə nəzarəti gücləndirsinlər və terror çağırışlarının qarşısını zamanında alsınlar. Bunu ona görə edirlər ki, Fransa və özəlliklə də Böyük Britaniyada terrorçular internet üzərindən çox rahat şəkildə danışırlar. Məsələn, illər uzunu terrorçuların bir qismi hətta Böyük Britaniya ərazisində təbliğat aparıb. Şəxslər var idi ki, terror törətməsələr də, İŞİD-ə simpatiyalarının olmasını açıq şəkildə ifadə edirdilər. Hətta onların saytları da vardı və insanları Əfqanıstanda, İraqda, Suriyada döyüşə qatılmağa çağırırdılar. Arqument belə idi ki, Böyük Britaniya demokratik ölkədir və liberal dəyərlərə fikir verirlər. Bu insanlar da cinayət törətmədikləri müddətdə həbs edilmirdilər. Ancaq görünür, artıq siyasət dəyişib. Bunu baş nazir Tereza Mey də son çıxışlarının birində qeyd etdi ki, müəyyən azadlıqlar məhdudlaşdırıla bilər. Elə Makronla görüşün əhəmiyyəti də məhz bununla əlaqəli idi".

**Politoloq bildirdi ki, son zamanlar Avropada terrorçuların ən çox vurduğu ölkələr Fransa və Böyük Britaniyadır:** "Ona görə də bu səpkidə əməkdaşlığa da iki dövlətin ehtiyacı var. Düşünürəm ki, həm Fransada, həm də Böyük Britaniyada bəzi azadlıqlara, o cümlədən də internet azadlığına müəyyən məhdudiyyətlər gətirilməlidir. Artıq rahat şəkildə kimsə İŞİD-ə simpatiyasının olduğunu deyə, çağırışlar edə bilməyəcək. İŞİD üçün Breksit və ya digər bu kimi məsələlər önəmli deyil. Onların konkret olaraq hücum taktikaları var. İndi isə Suriyada və İraqda fəaliyyət dairələri məhdudlaşdırıldığı üçün bu cür addımlar atırlar. Rakka və Mosul da artıq nəzarətdədir və bu onu göstərir ki, bir müddət sonra İŞİD üzvlərinin sayı azalacaq. Eyni zamanda dairələri də daralacaq. Lakin bu, o demək deyil ki, dünyada terrorun sayı azalacaq. Bunun tam əksini düşünürəm. Çünki ənənəvi İŞİD İraq və Suriyadan çıxa bilməyəcəksə, onlara rəğbət göstərən və ikinci İŞİD kimi adlandırdığım şəxslər daha da aktivləşəcəklər. Bax bu qrup daha təhlükəlidir. Londonda, Rusiyada baş verən son terror hadisələrinə diqqət etsək, bunu həyata keçirənlərin heç Yaxın Şərqdə olmadıqlarını görərik. Sadəcə olaraq, internet vasitəsilə beyinləri zəhərlənib və belə bir aksiyalara əl atıblar. İkinci qrup İŞİD-çilər Avropa dövlətləri və digər dövlətlər üçün təhlükədirlər. Onlar döyüşlərdə iştirak etməsələr də qərar verib, simpatiyaları olduğu üçün terrorlar törədirlər. Belə şəxslər bütün ölkələrdə, o cümlədən Azərbaycanda da var. Ona görə də bu cür şəxslər nəzarətə götürülməlidir. Çünki əks halda, bu kimi terror olayları yenə müşahidə oluna bilər. Problem odur ki, terrorçulara qarşı mübarizədə ümumi bir mərkəz yaradılmayıb. Böyük dövlətlərin hamısı öz istiqamətlərində çalışırlar və koordinasiya yoxdur. Böyük Britaniya Amerikanın əsas strateji müttəfiqidir, ancaq o belə son qərarı ilə artıq Amerikaya kəşfiyyat məlumatları verməməyi qərarlaşdırdı. Çünki son partlayışda Böyük Britaniya cinayətkarı gizli saxlamağa çalışdığı halda, Amerikanın mətbu orqanında cinayətkarın şəkli, hadisə haqqında məlumat verildi. Böyük dövlətlərin terrorçulara qarşı vahid koalisiyası olmasa, onların üzərində qələbə qazanmaq da çətin olacaq".

❑ **Əli RAİS**

# Namus üstündə anasını öldürən 16 yaşında qatìl məhkəmə qarşısında



**Namus üstündə anasını öldürən 16 yaşlı gənc hakim qarşısına çıxarılıb. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə təqsirləndirilən 2000-ci il təvəllüdlü Əliyev Maarif Eldar oğlunun cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

Hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmənin baxış iclası iyunun 21-nə tətin edilib.

Hadisə ötən ilin dekabrında Zabrat-2 qəsəbəsində baş verib.

Füzuli rayonundan olan məcburi köçkün, 16 yaşlı Maarif Eldar oğlu Əliyev anası, 1978-ci il təvəllüdlü Mədinə Qurbanovanı mübahisə etdikdən sonra güllələyib.

M.Əliyev polisə könüllü təslim olub. O, hadisədə istifadə etdiyi, babasına məxsus ov tüfəngini də polisə təhvil verib.

M.Əliyev qətli namus üstündə törətdiyini bildirib.

Hadisədən sonra qonşuların mətbuata dediyinə görə, M.Qurbanovanın əri hadisədən bir müddət əvvəl arvadından küsərək evdən gedib. Qadın isə başqa kişilərlə görüşüb. Bu barədə M.Əliyevə qonşular məlumat verib. Bundan sonra o, anasını güdməyə başlayıb. Küçədə anasının avtomobildən düşdüyünü görən gənc evdə onunla mübahisə edib. Mübahisə bitdikdən yarım saat sonra M.Əliyev anasına divanda əyləşdiyi yerdə atəş açıb. Atəş səsinə qonşular gəlib. M.Qurbanovanın 4 övladı var. M.Əliyev ortancıl oğludur.

O, Cinayət Məcəlləsinin 120.1-ci (Qəsdən adam öldürmə) maddəsi ilə təqsirli bilinib.

❑ **İ.MURADOV**

**İzrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi keyfiyyətli müayinə və müalicə edə bilər.

- **Diaqnozu bilinməyən ağır hallar;**
- **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya**
- **Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;**
- **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- **Sidikdə və ya spermada qan;**
- **Spermanın azalması və itməsi;**
- **Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;**
- **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;**
- **Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);**
- **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez**
- **50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;**
- **Seksual inamsızlıq, gərginlik və qorxu nevrozları.Yuxu pozğunluqları**
- **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.



## Kafedə işləyən qıza görə adam öldürdü - 19 il cəza aldı

**Bakıda qətl törədən şəxsə hökm oxunub. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə təqsirləndirilən 1992-ci il təvəllüdlü İlqar Əhmədov və xuliqanlıq etməkdə təqsirləndirilən Emin Cəfərova hökm oxunub.**

Hakim Mahmud Ağalarovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) və 29,120.2.7-ci (iki və daha artıq şəxsi öldürməyə cəhd) maddələrinə əsasən təqsirləndirilən İlqar Əhmədova 19 il cəza verilib.

Cinayət Məcəlləsinin 221-ci (xuliqanlıq) maddəsi ilə təqsirli bilinən Emin Cəfərov isə 2 il müddətinə azadlıqdan məhrum edilib. E.Cəfərov 2014-cü ildə də 7 il 6 ay azadlıqdan məhrum edilib və şərti cəza alıb. Onun cəzası ödənilməyib. Cəfərovun cəzaları qismən toplanaraq 8 il müddətinə azadlıqdan məhrum edilib.

İttihama görə, hadisə Binəqədi rayonundakı kafelərdən birində baş verib. Kafedə olan oğlanlardan birinin orada işləyən Aynurəyə sataşması davaya səbəb olub. 2017-ci il yanvarın 1-də həmin ərazidə küçədə 1997-ci il təvəllüdlü Murad Hüseynovun meyiti tapılıb. Hadisəni törətməkdə şübhəli bilinən 1992-ci il təvəllüdlü İlqar Əhmədov müəyyən edilərək saxlanılıb.

Araşdırmalar zamanı məlum olub ki, İlqar Əhmədov Murad Hüseynovun dostu, 1982-ci il təvəllüdlü Rövşən Ağayevə də bıçaq xəsarətləri yetirib. Rövşən Ağayev xəstəxanaya yerləşdirilib, ona tibbi yardım göstərilib. İlqar Əhmədov qəsdən adam öldürməkdə, iki və daha çox adamı öldürməyə cəhddə, Emin Cəfərov isə xuliqanlıqda təqsirləndirilib.

❑ **İ.Muradov**




## “12 nömrəli marşrut avtobusunun sürücüləri özbaşınalıq edir”

### Nəqliyyat Agentliyi məsələni nəzarətə götürəcək

**“Öz kefləri istəyən kimi işləyirlər. Camaat yolda qalır, evə gedə bilmir. Bunların heç biri sürücülər üçün maraqlı deyil”. Musavat.com xəbər verir ki, bu sözləri Xətai rayon sakinləri deyir: “12 nömrəli marşrut xəttinin sürücüləri uzun müddətdir ki, iş saatlarını özləri təyin edirlər. Nə vaxt istəsələr işə çıxırlar, nə vaxt istəsələr avtobusu qaraja aparıb, işlərini dayandırırlar. Axşam ən yaxşı halda 22:30-a qədər işləyən marşrut avtobuslarına görə yüzlərlə rayon sakini yollarda qalır.**

İşdən gec çıxan sakinlər hər gün taksi ilə evlərinə getməli olurlar. Bu da aylıq azı 100 manat əlavə xərc deməkdir. Bütün marşrut avtobusları gecə saatlarına qədər işləsələr də, 12 nömrəli marşrut avtobuslarının sürücüləri bəzən saat 10-dan yoxa çıxırlar. Sürücülərin vaxtından tez xətdən ayrılmalarının səbəbi o saatlarda daha az pul qazanmalarıdır. Çünki gecə saatlarında sərnişin sıxlığı nadir hallarda olur. Bu da sürücülərə sərf etmir deyə, işi dayandırırlar".

**Azər Cavadov adlı rayon sakininin sözlərinə görə, o, 1 ay ərazində 90 manat taksiyə pul xərcləyib:** “Hamısı da bu sürücülərə görə... İşdən axşam 10-da çıxıram. Metroya çatmağım, oradan da ”Əhmədli" stansiyasına gəlməyim bir az vaxt alır. Saat heç 11 olmur, amma buna baxmayaraq bir dənə də olsun avtobus tapmıram. Cavanşir küçəsinə ancaq 12 nömrəli marşrut avtobusu gedir. Ona görə də hər gün axşam evə taksi ilə getməli oluram. Bu da ən ucuzu 3 manat xərc deməkdir. Kimsə kefinə uyğun işləyəcək deyə mən ailə büdcəmə ziyan vurmalı oluram. Aidiyyəti orqanlardan xahiş edirəm ki, bu xətt üzrə işləyən şirkəti tənbeh etsinlər, belə olmaz axı".

**Xatirə Salahova deyir ki, bəzən məcbur qalıb başqa marşrut avtobuslarından istifadə etməli olur. Amma bu da başqa problemlərə yol açır:** “Küçənin başına qədər başqa avtobusla gedirəm, yolda düşürəm. Gecə saatları, qaranlıq küçədə bir qadın üçün bu yolu getmək asan deyil, adam qorxur. Amma avtobus işləsə, düz qapımda düşərəm. Dəfələrlə sürücülərə iradımı bildirmişəm. Hər dəfə də üzümə dururlar ki, guya işləyirlər”.

Sürücülərlə də danışdıq. Bir neçəsi “yalan söhbətdir, biz azı axşam 11-ə kimi işləyirik” desə də, həqiqəti etiraf edən də oldu: “O saatlarda avtobus dolmur. 10-15 nəfər adam olur. Buna görə də bizə sərf etmir”.

**Məsələ ilə bağlı Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mayıs Ağayevlə əlaqə saxladıq. Agentliyin sözçüsü problemin həll ediləcəyinə söz verdi:** “Hər bir marşrut xətti üzrə işləyən daşıyıcıların borcu odur ki, həmin ərazi üzrə sərnişinlərə yüksək xidmət göstərsinlər. Biz bu məsələni araşdıracağıq. Əgər həqiqətən də daşıyıcı üzərinə düşən öhdəliyi yerinə yetirmirsə, biz bununla bağlı tədbir görəcəyik. Hər bir daşıyıcı bilməlidir ki, onun biznes maraqları ilə yanaşı sosial məsuliyyəti də var. Onlar bu məsuliyyətlərini anlayıb, buna uyğun işləməlidirlər. Əgər bunu bacarmırlarsa, Bakı Nəqliyyat Agentliyi tərəfindən həmin xətt işini daha yaxşı görən başqa daşıyıcıya veriləcək”.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllìfindìr**

## Elan

**Ağdaş şəhəri Heydər Əliyev prospekti 170/4-də yerləşən Süleymanova Məsturə Mahmud qızına məxsus 2 otaqlı məzilin texniki pasportu və qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

***

**Ağdaş şəhərində Bəkiyeva Rəna Arif qızına məxsus fərdi yaşayış evinin çıxarışı və texniki pasportu itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 128 (6742) 15 iyun 2017

**Son zamanlar Bakı küçələrində yüksək sürətlə şütüyən "Niva" (VAZ -2121) markalı avtomobillərin sayı çoxalıb. Xüsusilə də bu avtomobilə maraq göstərənlər "avtoş"lar, bəzi məmur övladlarıdır ki, onların sürdükləri "Niva"nın qiyməti heç də xarici maşınlardan aşağı deyil. Yolsuzluq şəraitinə uyğun olan bu avtomobillərdən əvvəllər daha çox dağ yerlərində, çətin keçilən yollarda istifadə edirdilərsə, bu gün mənzərə tamam başqadır. Elə statistikalar da bunu deməyə əsas verir ki, "Niva" Azərbaycanda artıq ən çox satılan avtomobil sırasında birincilərdəndir.**

# "Niva"larla "avtoş"luq edənlər kimlərdir...

## Bu gün "avtoş"luq edənlərə cəmiyyətdə əl çalanlar çox azdır, amma...



Maşına maraq göstərən gənclər bu gün "Niva"ların xarici görünüşünü, texniki göstəricilərini elə dəyişirlər ki, artıq köhnə maşından əsər-əlamət qalmır. "Niva"larla bağlı elanlar arasında hətta 35 min manat qiymətə də rast gəlmək olur. Belə "Niva"ların sükanı, salonu, güzgüləri, oturacaqları və hətta ötürücü qutusu da dəyişdirilir.

Bəs insanların bu avtomobilə belə maraq göstərməsinin səbəbi nədir?

**Ekspert Elməddin Muradlı "Yeni Müsavat"a mövzu ilə bağlı maraqlı məlumatlar verib. E. Muradlı söyləyib ki, "Niva"nın cəzbedici olmasının əsas səbəbi bu avtomobilin manevr imkanlarının geniş olmasıdır:** "Eyni zamanda "Niva" yaxşı çəkən maşındır və yolsuzluq şəraitinə tam uyğundur. Bu gün dağ kəndlərimizdə məhz "Niva"dan istifadə edirlər. Bütün dövrlərdə bu avtomobillər dözümlü maşın olub və ağır şəraitlərdə bundan istifadə olunub. Son zamanlar isə bu maşınlardan daha çox avtoxuliqanlar istifadə edirlər. Eləcə də bəzi imkanlı şəxslər də ikinci, üçüncü avtomobilləri kimi "Niva" alırlar. Kiminsə imkanları genişdir və "Niva"ya əlavələr etməklə, onu müxtəlif formada dəyişir. Ancaq bir məsələ var ki, dəyişdirilən avtomobildə artıq "Niva"lıq qalmır. Mühərrikin, ötürücü qutunun və ya hansısa detalın dəyişilməsi artıq bu avtomobilin özünün dəyişməsi deməkdir. Konkret olaraq "Niva"da "Mercedes"in və ya digər Avropa maşınının rahatlığını axtarmaq da doğru deyil. Bu avtomobillərin qiymətinin qalxmağı həm də onunla əlaqədardır ki, son zamanlar Rusiyada bu avtomobilin istehsalı davam edir və müəyyən təkmilləşdirmə işləri aparılır. Eyni zamanda qabaq və arxa buferlər də dəyişdirilib. Bu məqam təhlükəsizlik baxımından olduqca önəmlidir. Əvvəllər "VAZ"ın demək olar ki, bütün avtomobillərində arxa və ön buferlər dəmirdən idi. Nəticədə isə avtomobil piyadaya aşağı sürətlə belə toxunan zaman onun qıçını qırırdı. İndi isə "Niva"larda buferlər artıq plastik materialla əvəzlənib ki, bu da müsbət haldır. Bu dəyişikliyə görə də qiymətlər bahalaşıb".

**E. Muradlı bildirib ki, yolsuzluq şəraitində "Niva" bir çox Avropa avtomobillərini geridə qoyur:** "4x4 avtomobilləri var ki, Avropa istehsalıdır. Ancaq "Niva" həmin avtomobilləri geridə qoya bilər. Avropa avtomobilləri var ki, onlar ən müasir detallarla belə, o yolu gedə bilmirlər. Əvvəllər avtoxuliqanlar "VAZ 2107"yə üstünlük verirdilər. İndi isə bu avtomobillərin Azərbaycana gətirilməsi dayandırılıb. Düşünürəm ki, təhlükəsizlik baxımından buna qərar verildi və hesab edirəm ki, çox da doğru addım atılıb. Çünki bu avtomobillərdə qəzalar zamanı ölüm halları çox olurdu. Qəzada bəzən görürdün ki, avtomobilin salonunda olan bütün sərnişinlər ölüblər. O baxımdan, bir daha qeyd edirəm ki, dövlətimiz doğru qərar verdi. Həm də son zamanlar "VAZ" bir qədər səhlənkarlığa yol verib, avtomobilləri ucuz və keyfiyyətsiz detallarla yığırdı. "Niva" ilə avtoxuliqanlıq edənlərin məsələsinə gəlincə isə onu deyim ki, "avtoş"lar üçün bir məhdudiyyət yoxdur. Hətta Avropa avtomobilləri ilə də bunu edənlər var. Ancaq yaxşı haldır ki, son zamanlar qanunlar, cəzalar sərtləşdirildi və nəticədə həbs olunanlar, cəza çəkənlər oldu. Hətta vəzifəli şəxslərin də övladları məsuliyyətə cəlb olundular, ictimai qınaqlar oldu. Bütün bunlar nəticəsiz qalmadı. Bu gün "avtoş"luq edənlərə cəmiyyətdə əl çalanlar çox azdır. Bir zamanlar beşmərtəbə dairəsində "avtoş"lar şou göstərirdilər və insanlar da bunu izləmək üçün uzaq məsafələrdən həmin əraziyə gedirdilər. Hətta yol polisinin maşınının qabağını da kəsirdilər ki, "avtoş"u tuta bilməsinlər. Görünən budur ki, indi belə deyil. Artıq bu kimi hərəkətlər edənləri cəmiyyət sərt şəkildə qınayır. Hər bir halda indi avtoxuliqanlıq edən "Niva"lar da bir dəfə yol polisinin dəftərinə düşdüsə, çox uzağa gedə bilmir. Onlar daim nəzarətdə saxlanılır".

**Əli RAİS**

# Bakı bulvarında müştərilər necə soyulur?

## Venesiyada 20 manatlıq çay, artıq yazılan hesablar və daha nələr...;
## Eyyub Hüseynov: "Biz bütün bunlarla bağlı məsələ qaldırmışıq..."

**Bakının Dənizkənarı Milli Park ərazisində ötən ilə nisbətən çay evlərinin sayı artıb. Bulvarın elə əraziləri var ki, gözə bilmək üçün gərək bir çay evinin içindən digərinə keçərək yoluna davam edəsən. Bulvardakı kafelər və çay evləri nəinki turistləri, eləcə də yerli əhalini soymaq və aldatmaqla məşğuldur.**














Bulvarda çay və ya yemək sifariş edənlər hesabı görəndə təəccüblənirlər. Çünki vətəndaşlara heç sifariş etmədiyi yeməklərin hesabı gətirilir. Müştərilər çox zaman buna diqqət etmədən hesabı artıqlaması ilə ödəmiş olurlar. Bunu daha çox turistlər edir. Çünki onlar kağızda nələrin yazıldığını oxuya bilmirlər. Yalnız rəqəmi görürlər.

Nəinki turistlər, heç yerli müştəri belə kağızda yazılanları oxuya bilmir. Çünki qələmlə çox səliqəsiz oxuna bilinməyəcək bir tərzdə yazılır. Buradakı əksər kafe və restoranlarda hesab kassaya vurulmur. Bunun da yalnız bir səbəbi var - vergidən yayınmaq. Əgər bir restorana və ya çay evinə 100 adam gəlirsə, onun 25 nəfərinə kassadan çek verilir. Kimsə çek tələb edərsə, o zaman məcbur qalıb verirlər. Belə bir hadisənin Milli Parkdakı "Günəşli" kafesində bir daha şahidi olduq. Müştəri ilə ofisiantın hesab mübahisəsi etdiyini görüb həmin restoranda oturub müşahidə aparmaq qərarına gəldik.

Bizə menyu təqdim edildi. Menyuda bir şişi 4 manat göstərilən toyuq, bir şişi 5 manat göstərilən ət kababı sifariş etdik. 4 manata isə tərəvəz salatı sifariş etdik. Tərəvəz salatında iki kiçik ölçülü pomidor və iki xiyar bütöv şəkildə qoyulmuşdu. Bir də göyərti. Üstəgəl, sadə çay, yeni qənd və limonla sifariş etdik. Hesabı istəyəndə məlum oldu ki, əslində 2 ədəd kiçik pomidor və 2 ədəd xırda xiyardan ibarət salat 2 porsiya hesab edilirmiş. Bununsa qiyməti 4 manat idi. Sadə qəndlə çayın qiyməti isə 4 manat, əlavə mürəbbə ilə çay isə sizə 8 manata başa gələcək. Ümumilikdə hesabımız 21 manat etməli idi. Ancaq bizə təqdim edilən hesabda 38 manat qeyd edilmişdi. Hesaba nəzər saldıqda bir salatı "sveji" 4 manat, salat 4 manat yazılmışdı. Yəni "sveji salat" adlandırdıqları salatı adına uyğun olaraq iki yerə - sveji 4 manat, salat 4 manat deyə qeyd etmişdilər. Ofisianta bu barədə irad bildirdikdə o, səliqəsiz əl yazısı ilə yazılan hesaba baxaraq səhv yazılıb dedi və başqa hesab gətirdi. Bu dəfə qiymət 26 manat qeyd edilmişdi. Budəfəki hesabda isə mürəbbə qeyd edildiyini gördük. Halbuki biz mürəbbə sifariş etməmişdik. Ofisianta bu dəfə də irad bildirib mürəbbə sifariş etmədiyimizi dedikdə narazı halda bu dəfə düzdür dedi. Ancaq yazdıqlarına baxanda bu dəfə də mürəbbəni artıq yazdıqlarını gördü. Nəhayət, "düzgün" hesab gəldi - 24 manat. Hesabı ödədikdə qəbz gəlmədi. Ofisiantdan kassaların olub olmadığını soruşduqda o, "kassa var, qəbz nəyinizə lazımdır ki" deyə reaksiya verdi və narazı halda qəbz gətirdi. Göründüyü kimi, adi kağıza qələmlə hesab yazılıb gətirilir, kassaya vurulmur və qəbz gətirilmir. Bununsa yalnız bir səbəbi var - vergidən yayınma. Biz artıq məkanı tərk edəndə digər müştərinin də hesab mübahisəsi etdiyini gördük...

Müşahidələr nəticəsində deyə bilərik ki, başqa çay evlərində də müştəri soyulur. Belə çay evlərində sadə çay içmək mümkün deyil, mütləq çay dəsgahı sifariş etməlisiniz. Dəsgahların qiyməti isə onun içindəkilərə görə 15 manatdan başlayır və artan qiymətlə davam edir. Bir sıra restoranlarda çay qəndlə yalnız o zaman verilə bilər ki, siz yemək sifariş vermiş olasınız. Ofisiantlardan niyə yalnız çay sifariş etməyin mümkün olmadığını və qiymətlərin baha olduğunu soruşduqda onlar bunun sezon işi olduğunu və onların da qazancının bu 3-4 ayda çıxdığını dedilər. Adının çəkilməsini istəməyən ofisiant vergi və yer pulu nəzərə alınarsa, menyulardakı qiymətlərin hətta aşağı hesab olunduğunu bildirdi.

Qeyd edək ki, heç bir çay evi və ya kafedə oturmadan da bulvar ərazində gəzməyə çıxmısınızsa, yenə əlinizi cibinizə salmalı olacaqsınız. Bu ərazidə satılan sular, cipsilər, tumlar mağazadakılardan 20-50 qəpik baha satılır. Gəmiyə minmək istəsəniz, bu sizə 3 manata başa gələcək. Bulvarın Venesiya adlanan hissəsində oturub nəsə yemək və ya çay içmək istəsəniz, bu, sizə iki dəfə baha başa gələcək. Məsələn, oturub açıq havada çay içmək 20 manatdır. Özünüzü bir anlıq Venesiya şəhərində hiss edib qayığa minmək isə 3 manatdır. Bulvar ərazisindəki karusellərin və əyləncəli oyunların qiyməti isə 50 qəpikdən başlayıb 10 manatadək qalxır.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, dövlətin köklü istehlakçı siyasəti olmalıdır:** "Biz bütün bunlarla bağlı məsələ qaldırmışıq. Hökumətin bir tərəfli siyasəti olan biznes qurumlarının inkişafı istehlakçı hüquqlarının arxa planda qalmasına xidmət edir. Bu kimi hadisələr restoranlarda, bulvardakı kafelərdə, bütün sahələrdə baş verir. Bunların qarşısını almaq üçün dövlətin köklü istehlakçı siyasəti olmalıdır".

**Günel MANAFLI**
**Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 128 (6742) 15 iyun 2017*





## Çox dildə danışmaq xəstəliyi sağaldır

**Son aradırmalardan məlum olub ki, birdən artıq dildə danışmaq bir sıra beyin xəstəlikləri riskini azaldır. Hindistanda aparılan tədqiqatda 240-ı alzaymer xəstəsi olmaqla, 66 yaşlı 650 nəfər iştirak edib. İştirakçılardan 391 nəfəri 2 və ya daha artıq dildə danışan insanlar olub. Alimlər müəyyən ediblər ki, bu insanlarda alzaymer xəstəliyi 1 dildə danışanlarla müqayisədə daha gec, 4.5 il sonra başlayır. Təhsil səviyyəsinin araşdırmaların nəticələrinə təsiri olmayıb.**

Tədqiqatın həmmüəllifi Tomas Bakın dediyinə görə, müxtəlif dillərdə danışan insanların beyinləri sözlər və ifadələr arasında seçim etməyə məcbur olur. O, beynin konsentrasiyasının beyin xəstəliklərinə meyilliliyi azaltdığını bildirir. Alimlər müəyyən edib ki, 2-dən artıq dildə danışmağın müsbət nəticəsi olmayıb.

Araşdırmalar həm də hallüsinasiya ilə müşayiət edilən Levi demensiya proqressiv beyin xəstəliyinin başlama prosesini gecikdirmədiyini göstərib. Tomas Bakın dediyinə görə, dillərin hansı yaşda öyrənildiyi əhəmiyyət kəsb etmir. O bildirir ki, dil öyrənilməsinin yaşdan asılı olmayaraq faydası böyükdür. İkidilliyin demensiyaları gecikdirməsi hətta savadsız insanlarda da müşahidə edilib.

# Facebook kredit borcunu artırırmış

**Kolumbiya Biznes Məktəbi və Pitsburq Universitetinin ortaq araşdırmasına görə, sosial şəbəkədən istifadənin artımı istifadəçilərin bədən kütlə indeksini pozur və kredit kartı borclarını artırır. İstehlakçı davranışları üzrə mütəxəssisləşən "Consumer Research" jurnalının son buraxılışında yer alan araşdırmada göstərilib ki, facebookdakı yoldaşlarını tez-tez təqib edən istifadəçilərin ani olaraq özünə inamı artır. Bu artım istifadəçinin özünə nəzarətini azaldır və sosial şəbəkədə daha çox vaxt keçirdiyi üçün bədən kütlə indeksi və kredit kartı borcları artır.**



Bədən kütlə indeksinin pozulmasına səbəb isə sosial şəbəkəyə aludə olan şəxsin qidalanmasına lazımi qədər önəm verməməsidir. Amma sosial şəbəkədən asılılıq ciddi xəstəlik sayılır və insanı bu asılılıqdan qurtarmaq siqaret, narkotik kimi digər zərərli vərdişlərdən xilas etmək qədər çətindir.

# Pişiklər sahibinin səsini tanıyır

**Tokio Universitetinin professorlarının uzun müddət davam edən araşdırmaları nəticəsində məlum olub ki, pişiklər sahiblərinin səsini tanıyırlar, lakin onları eşitmək istəmirlər. Araşdırma zamanı əvvəlcə pişikləri tanımayan 3 nəfər onları adları ilə çağırıb. Pişiklər tanımadıqları səslərə heç bir reaksiya verməyiblər. Sonra isə sahibləri onlara səslənib. Pişiklər sahiblərinin səslərini eşitdikləri zaman başları, qulaqları, ayaqları, quyruqları və gözləri tərpənib.**

Maraqlıdır ki, pişiklər sahiblərinin səslərini tanısalar da, yerlərindən qalxmaq istəmədikləri zaman onları eşitməmiş kimi hərəkət edirlər. Mütəxəssislər itlərlə pişiklərin sahiblərinə qarşı fərqli münasibət bəslədiklərini deyirlər. Bunun səbəbi isə itlərin qədim zamanlardan bəri insanların dostu olması, pişiklərin isə yalnız siçan tutmaq məqsədi ilə saxlanılmasıdır.





## Qadın gözəl bədən quruluşuna sahib olmaq istədi, kişiyə oxşadı

**Daha gözəl bədən quruluşuna sahib olmaq üçün idmanla məşğul olan qadın kişiyə çevrilib. Londonda yaşayan 28 yaşlı qadın əzələlərinin inkişaf etməsi üçün dərman qəbul etməyə başlayıb. Bir neçə ay sonra isə onun bədəni kişilərdən fərqlənməyib. Belə ki, əzələləri və xarici görünüşü kobudlaşıb. Sinəsi və qol əzələləri böyüyən qadının saçları da tökülüb. Üzündən və bədənindən tük çıxıb. O, dərmanı içməkdən vaz keçsə də əvvəlki vəziyyətinə qayıda bilməyib. Candice Armstrong adlı qadının həyatı sənədli filmə çevrilib və bir çox televiziya kanallarında yayımlanmağa başlayıb.**




**QOÇ** - Uğurlarınıza təkan verildiyindən qlobal problemləriniz arxada qalmaqdadır. Lakin rəqiblərlə münasibətdə ehtiyatı əldən buraxmamalısınız. Vəzifəli adamlardan uzaq olun.

**BUĞA** - Dünənki xoş ovqatınız bu gün də davam edəcək. Hansısa gərginlik və ya münaqişəni ağlınıza gətirməyin. Ailə üzvlərinizə qarşı mülayim olun. Sevdiyiniz adamları dəyərləndirin.

**ƏKİZLƏR** - Maraqlı adamlarla görüşəcəyinizi bəyan edən ulduzlar gələcək perspektivləriniz üçün bunun böyük səmərə verəcəyini deyir. Başqa maraqlı olaylarla da qarşılaşacağınız istisna olunmur.

**XƏRÇƏNG** - Qarşınızda çoxsaylı vəzifələr dursa da, orqanizminizdə passivlik yaranması işləri ləngidə bilər. Bu səbəbdən ilk növbədə səhhətinizi qorumalısınız ki, hər şeyə yetişə biləsiniz.

**ŞİR** - Astroloji göstəricilər xoş bir təqvim yaşayacağınızı bildirir. Xüsusən də saat 14-dən sonra bir neçə sürprizlə rastlaşma ehtimalınız var. Şəxsi büdcənizi artırmaq üçün canfəşanlıq göstərin.

**QIZ** - Yaxşı olar ki, özünüzü bütünlüklə sevgiyə həsr edəsiniz. Çünki həssaslığın himayədarı olan planetiniz (Merkuri) artıq Yerə təsir imkanlarını itirmək üzrədir. Şansınızı buraxmayın.

**TƏRƏZİ** - Əvvəlki günlərlə müqayisədə sağlıq durumunuz qənaətbəxşdir. Bundan irəli gələrək fəaliyyətinizi aktivlik müstəvisinə yönəltmək imkanı qazanacaqsınız. İşgüzar görüşləri təxirə salmayın.

**ƏQRƏB** - Diqqətli olun. Sizi aldada bilərlər. Ələlxüsus da peşə-sənət fəaliyyətində, işgüzar sövdələşmələrdə ayıq-sayıqlığınızı artırmalısınız. Düşünülməmiş riskə ehtiyac yoxdur.

**OXATAN** - Ulduzların düzümü kənar təsirlərə məruz qalacağınızdan xəbər verir. Ələlxüsus da saat 12-15 arası ehtiyatı əldən buraxmamalısınız. İş görüşmələrində təşəbbüskarlığı əldən verməyin.

**OĞLAQ** - Bəxtinizdə maraqlı bir gün durur. Qarşınıza çıxan bütün şanslardan yararlanın. Şəxsi büdcənizin azlığından şikayətlənməyin. Axı hələ hər şey itirilməyib. Azacıq səbr edin.

**SUTÖKƏN** - Hiss olunur ki, ətrafınızda cərəyan edən hadisələr sürətli olsa da, cansıxıcı təsir bağışlayır. Amma bu, ötəridir. Əgər qərarlarınızda qətiyyət göstərsəniz, narahatlıq olmayacaq.

**BALIQLAR** - Kənardan hansısa dəstək alacağınız inandırıcı deyil. Bu səbəbdən də yalnız öz gücünüzə arxalanın. Göy qübbəsi görüş və müzakirələrə gecikməməyi tövsiyə edir. Riskdən qorxmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu şalvarı geyinənlər sellülitdən qurtulur




**Bədən temperaturunu normal saxlayaraq, qanın hərəkətini sürətləndirən şalvarlar qadınların ən yaxın dostu olacaq. Çünki braziliyalı modelyer Aleksandra Herçkoviç tərəfindən hazırlanan şalvar qadınların bədənini sellülitdən xilas edir. Rio de Janerodakı moda həftəsində ictimaiyyətə tanıdılan cins şalvar sahibinin bədən temperaturunu normal saxladığı üçün orqanizmi bir çox problemlərdən uzaq tutacaq. Qəribə şalvar 5 illik araşdırmalardan sonra hazırlanıb. Şalvarın satışa çıxarıldıqdan sonra rekord sayda satılacağı gözlənilir.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100